AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

R.P. Sultanova, E.M. Xankişiyeva, K.P. Piriyev

AZƏRBAYCANIN İQTİSADİ VƏ İNZİBATİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAF İNDEKSİ

Bakı – 2022

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Elmi Şurasının 17 iyun 2022-ci il tarixli (protokol əsasında) 5№-li qərarı ilə çap olunur.

Elmi redaktorlar: **c.e.d, prof. Həsənov T.G.,**
i.f.d., dos. Muradov A.N.

Rəyçilər : **i.e.d., prof. Rəhmanov F.P.**
i.e.n., dos. Sarıyev Ə.B.

Azərbaycanın iqtisadi və inzibati rayonlarının sosial-iqtisadi inkişaf indeksi – Bakı, "Elm və bilik" P.Z., 2022, - 150 s.

İSBN: 9 7 8 - 9 9 5 2 - 5 4 9 - 1 2 - 6

Monoqrafiya Azərbaycan MEA İqtisadiyyat İnstitutunun "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsinin əməkdaşları – şöbə müdiri, i.e.d., prof. R.P. Sultanova, aparıcı elmi işçi, i.f.d. K.P. Piriyev və elmi işçi, i.f.d. E.M. Xankişiyevanın son üç il ərzində (2019-2021-ci illər) apardıqları elmi-tədqiqat işləri əsasında hazırlanmışdır.

Tədqiqat ölkə regionlarının 2021-ci ilə qədər olan təsnifatı əsasında aparılmışdır.

Monoqrafiyada beynəlxalq reytinqlərdə iqtisadi və inzibati rayonlarda sosial-iqtisadi inkişaf göstəriciləri üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması istiqamətləri tədqiq edilmiş və müvafiq təklif və tövsiyyələr verilnmişdir.

Kitabda Azərbaycanın iqtisadi və inzibati rayonlarının sosial-iqtisadi inkişaf reytinqinin müəyyən edilməsinin nəzəri-metodoloji əsasları işlənmişdir. Belə ki, monoqrafiyada

regionlar üzrə sosial-iqtisadi inkişaf reytinqinin hazırlanmasında sub-indekslərin hesablanması və təhlili verilmişdir. Burada ölkənin iqtisadi rayonlarında alt indekslərin inkişaf meylləri tədqiq edilmişdir.

Monoqrafiyada Azərbaycanın iqtisadi rayonlarında sosial-iqtisadi inkişaf reytinqinin ekonometrik qiymətləndirilməsi aparılmış, burada müvafiq göstəricilər üzrə iqtisadi rayonların üstün və zəif cəhətləri göstərilmiş, əldə edilmiş nəticələr əsasında müvafiq dövlət orqanlarına təkliflər irəli sürülmüşdür.

Kitab elmi işçilər, ali məktəb müəllimləri, doktorantlar, tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

©"Elm və bilik" P.Z., 2022

MÜNDƏRİCAT

GİRİŞ..... 6

I FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ VƏ İNZİBATİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAF REYTİNQİNİN MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI..... 9

1.1. Sosial-iqtisadi inkişaf reytinqinin hazırlanmasında beynəlxalq təcrübə 9

1.2. Regionların sosial-iqtisadi inkişaf reytinqinin müəyyən edilməsinin metodologiyası. 17

II FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ VƏ İNZİBATİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAF REYTİNQİNİN HAZIRLANMASI..... 31

2.1. Azərbaycanın iqtisadi və inzibati rayonlarında iqtisadi, sosial və infrastruktur inkişafı sub-indekslərinin müəyyən edilməsi..... 31

2.2. Ölkənin iqtisadi rayonlarında alt indekslərinin inkişaf meyllərinin tədqiqi.. 65

III FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ RAYONLARINDA SOSİAL-İQTİSADİ İNKİŞAF REYTİNQİNİN EKONOMETRİK QİYMƏTLƏN-DİRİLMƏSİ..... 91

3.1. Azərbaycanın iqtisadi rayonları üzrə ticarət dövriyyəsinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi 91

3.2. Regionlar üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyərinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi 110

3.3. İqtisadi rayonlar üzrə hər nəfərə düşən ümumi məhsul buraxılışı və əsas kapitala yönəldilmiş investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi 128

NƏTİCƏ 137

ƏDƏBİYYAT SİYAHISI1 144

GİRİŞ

Tədqiqatın aktuallığı. Müasir dövrdə ərazilərin iqtisadi inkişafı sosial-iqtisadi və struktur dəyişikliklərinin həyata keçirilməsi, eləcə də regionların differensiasiyasının artması ilə səciyyələnir. Bu günləri müşahidə olunan paytaxtda və iri şəhərlərdə sənaye istehsalının və sosial institutların yüksək səviyyədə təmərküzləşməsi ilə birləşən regionların sosial-iqtisadi inkişaf səviyyəsində əhəmiyyətli diferensiallaşma ölkənin regional inkişafına öz mənfi təsirini göstərir. Hazırda isə ərazilərarası tarazlığın pozulması ölkənin dünya iqtisadi arenasında rəqabətqabiliyyətlilik səviyyəsinin aşağı düşməsinə səbəb olur ki, bu da regionların tarazlı sosial-iqtisadi inkişafının təmin olunması problemini qabarıq şəkildə ortaya qoyur.

Belə ki, monoqrafiyada Azərbaycanın iqtisadi və inzibati rayonlarının sosial-iqtisadi inkişaf reytinqinin müəyyənləşdirilməsinin nəzəri-metodoloji əsaslarının işlənməsində beynəlxalq təcrübə öyrənilmiş və regionların sosial-iqtisadi inkişaf reytinqinin müəyyən edilməsinin metodologiyası verilmişdir.

Azərbaycanın iqtisadi və inzibati rayonlarının sosial-iqtisadi inkişaf reytinqinin hazırlanmasında sub-indekslərinin hesablanması və təhlilinin həyata keçirilməsində əsas məqsəd iqtisadi, sosial və infrastruktur amilləri də daxil olmaqla geniş kontekstdə inkişafın iqtisadi dayanıqlığı-

nı nəzərə almaqla regionlar üzrə sosial-iqtisadi göstəricilərinin işlənib hazırlanmasıdır. Bu indeks Azərbaycanın regionlarının hazırkı inkişaf səviyyəsini qiymətləndirmək və onlar arasında fərq səviyyəsinin müəyyən edilməsi üçün istifadə olunur.

Kitabda Azərbaycanın iqtisadi rayonlarında sosial-iqtisadi inkişaf indeksinin ekonometrik qiymətləndirilməsində ticarət dövriyyəsinin, əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyərinin, hər nəfərə düşən ümumi məhsul buraxılışı və əsas kapitala yönəldilmiş investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi verilmişdir.

Belə ki, regionların sosial-iqtisadi inkişaf indeksi ölkənin iqtisadi və inzibati rayonlarının vəziyyətinin monitorinqi üçün etibarlı və effektiv vasitədir və dövlət idarəçiliyinin səmərəliliyinin yüksəldilməsi üçün bir alət kimi istifadə oluna bilər.

Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf indeksi ölkə regionlarının sosial-iqtisadi inkişaf vəziyyətinin mühüm aspektlərini özündə əks etdirir və ümumilikdə, ölkə iqtisadiyyatının səmərəliliyini xarakterizə edir. İndeks üzrə sıralama regional iqtisadi, sosial və infrastruktur göstəricilərinin məcmusuna əsaslanır. Onun əsasında mövcud sosial-iqtisadi vəziyyətdə regional idarəetmə sistemində regionlar üzrə ayrı-ayrı sosial-iqtisadi göstəricilərin iqtisadiyyata və əhaliyə təsir etmə imkanlarını daha dərindən müşahidə etmək olar. Məhz, bir tərəfdən iqtisadiyyatın, di-

gər tərəfdən isə cəmiyyətin maraqlarının uzlaşdırılması və uzunmüddətli perspektivə yönəldilməsini görmək mümkündür.

Monoqrafiyada tədqiqat işi Azərbaycanın iqtisadi və inzibati rayonlarının indekslərinin hesablanması və bu göstəricilər üzrə sıralanması ilə məhdudlaşmır. Burada ölkə regionlarının sosial-iqtisadi inkişaf vəziyyətinin ətraflı təhlili həyata keçirilir ki, bu da onların reytinqdə ən yaxşı və ya ən pis yerlərdə olmasının izahını verir. Tədqiqat işində əldə olunmuş nəticə və təkliflər mühüm elmi problemlərin həllinə kömək etməklə yanaşı, həm də ciddi praktiki əhəmiyyət kəsb edir. Xüsusilə, tədqiqatın nəticələri ölkə regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı praktiki idarəetmə qərarlarının qəbul edilməsində, müxtəlif regionların inkişafına dövlət subsidiyalarının ayrılması, regionların tarazlı inkişafı üçün müntəzəm sosial-iqtisadi proqramlar işlənib hazırlanmasında faydalı ola bilər. Bütün bunlar sonda ölkənin beynəlxalq səviyyədə tanınmış sosial-iqtisadi inkişaf reytinqlərdə mövqeyinin möhkəmlənməsinə köməklik göstərəcək.

I FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ VƏ İNZİBATİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAF REYTİNQİNİN MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

1.1. Sosial-iqtisadi inkişaf reytinqinin hazırlanmasında beynəlxalq təcrübə

Hazırda regionların sosial-iqtisadi inkişaf göstəricilərinin işlənib hazırlanmasında müəyyən dünya nəzəri və praktiki təcrübəsi toplanmışdır. Beynəlxalq təşkilatlar və ayrı-ayrı ölkələr kifayət qədər müxtəlif göstəricilər sistemləri təklif edirlər ki, bu da çox mürəkkəb və çətin üsulla işlənmiş hesab olunur. İndi faktiki olaraq bütün iri beynəlxalq təşkilatlarda (BMT, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avropa Birliyi və s.) və əksər inkişaf etmiş ölkələrdə rəsmi inteqral göstəricilər və indikator sistemləri mövcuddur [6].

Bu sahədə ən uğurlu kompleks işləmə 1996-cı ildə BMT-nin Dayanıqlı İnkişaf Komissiyası tərəfindən təklif edilən davamlı inkişaf göstəriciləri sistemi olmuşdur. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik İndeksi ictimaiyyətə açıq olan statistik məlumatların və korporativ rəhbərlərin qlobal sorğusunun nəticələrinin birləşməsinə əsaslanan metodologiyadan istifadə etməklə hesablanır.

Belə ki, 2004-cü ildən aparılan tədqiqat hazırda dünyanın müxtəlif ölkələri üzrə rəqabətqabiliyyətlilik göstəricilərinin tam məcmusunu təmsil edir.

1995-ci ildə Kobbanın (Cobba) rəhbərlik etdiyi bir qrup alim ABŞ-da istifadə edilən Həqiqi İnkişaf İndeksini (Genuine Progress Index — GPI) işləyib hazırlamış və bunun vətəndaşlara və siyasətçilərə regionun iqtisadi vəziyyətinin və onun dinamikasının daha dəqiq göstəricisini təqdim etmək üçün nəzərdə tutmuşdur. Bu indeks ilk növbədə, iqtisadi rifahın ölçüsü hesab olunmaqla yanaşı, həm də sosial sferanın və ekoloji amillərin də qiymətləndirilməsini əhatə edir.

ABŞ-ın "Money Magazine" jurnalı oxucularının sorğusu əsasında sosial-iqtisadi inkişafın statistik göstəricilərinin məlumatlarından istifadə etməklə yaşayış üçün ən yaxşı yerlər ("Best Places") göstəricisini hesablamışdır. "Money Magazine" jurnalının apardığı araşdırma ABŞ ştatlarını yaşayış üstünlüyünün seçiminə görə sıralamağa yönəlmişdir. Aparılan tədqiqat oxucular üçün ən əhəmiyyətli kateqoriyalara - iqtisadiyyat, təhsil, mədəniyyət, asudə vaxt və ətraf mühitin çirklənməsi kateqoriyalarına əsaslanır.

Avstraliya Regionlarının Sosial-İqtisadi İndeksi (SEIFA). Bu indeks Avstraliya Statistik Büro tərəfindən nəşr olunur və onun ərazilərinin sosial-iqtisadi cəhətdən güclü və zəif tərəflərinə görə sıralayan məhsuldur. İndeks

əhalinin və mənzil siyahıya alınmasının məlumatlarına əsaslanır.

Avstraliya Regionlarının Sosial-İqtisadi İndeksi dörd indeksdən ibarətdir:

1. Nisbi sosial-iqtisadi uğursuzluq indeksi;
2. Nisbi sosial-iqtisadi üstünlüklər və çatışmazlıqlar indeksi;
3. Təhsil və Peşə İndeksi;
4. İqtisadi Resurslar İndeksi.

Hər bir indeks sub-indekslərin müxtəlif alt qruplarının xülasəsidir və sosial-iqtisadi üstünlüklərin və çatışmazlıqların müxtəlif aspektlərinə diqqət yetirir. SEIFA-nın hər nəşrində SEIFA əsasları bələdçisi, texniki sənəd və interaktiv xəritələr var [13].

Türkiyənin Sosial-İqtisadi İnkişaf İndeksi (SEDI) Türkiyədə müxtəlif ölçülü ərazilər (ilçeler, vilayətlər, coğrafi bölgələr) əsasında həyata keçirilən inkişaf və planlaşdırma təşəbbüslərinə əhəmiyyətli töhfə verir.

Türkiyə regionlarının sosial-iqtisadi inkişaf indeksi bu ölkənin mövcud inzibati strukturuna uyğun olaraq 81 vilayəti və sosial (demoqrafik, məşğulluq, təhsil, səhiyyə, infrastruktur, rifahın digər növləri) və iqtisadi (istehsal, tikinti, kənd təsərrüfatı, maliyyə) sahələr üzrə 58 göstəricini əhatə edir [17].

Rusiya regionlarının sosial-iqtisadi vəziyyətinin reytinqi "RİA Rating" - Reytinq Agentliyinin mütəxəssisləri tərəfindən regional inkişafın əsas göstəricilərinin cəmlənməsi əsasında qurulmuşdur. Bu reytinq Rusiyanın iqtisadi xəritəsində bölgələrin mövqeləri ilə bağlı suala cavab verməyə, regional inkişaf səviyyəsindəki qeyri-mütənasibliyi müəyyən etməyə imkan verir.

Bu reytinqdə geniş istifadəçi dairəsi üçün açıq olan rəsmi statistikanın obyektiv göstəricilər əsasında qurulması prinsipial əhəmiyyət kəsb edir. Reytinqdə ekspert qiymətləndirmələrindən istifadə olunmamışdır ki, bu da, bir tərəfdən göstəricilər toplusunu müəyyən dərəcədə daraldır, digər tərəfdən isə, daha əhəmiyyətli bir arqument olan, subyektiv mühakimə və qərəzli səhvlərdən uzaqlaşnağa imkan yaradır [16].

Özbəkistanın regionlarının sosial-iqtisadi inkişafının reytinq qiymətləndirməsi ondan ibarətdir ki, onun çərçivəsində hər bir ərazi iki mərhələdə öyrənilir və qiymətləndirilir.

Birinci mərhələdə statistik göstəricilər səkkiz prioritet üzrə qiymətləndirilir (ümumi maksimum bal - 50):

1.İqtisadi inkişaf və səmərəlilik (7,5 bal);

2. Əmək bazarının səmərəliliyi (6,25 bal);

3. Sosial sahədə xidmətlərin mövcudluğu və keyfiyyəti (11,25 bal);

4. İnfrastrukturun inkişafı və mövcudluğu (5 bal);

5. İqtisadiyyatın rəqabət qabiliyyəti və şaxələndirilməsi (3,75 bal);

6. Biznes mühitinin keyfiyyəti və sahibkarlığın inkişafı (7,5 bal);

7. Maliyyə müstəqilliyi, bank-maliyyə sektorunun inkişafı (5 bal);

8. Yerli özünüidarəetmə orqanlarının vətəndaşların müraciətləri ilə işinin səmərəliliyi və məlumatların əlçatanlığı (3,75 bal).

İkinci mərhələdə əhalinin sosial rifahını və həyat keyfiyyətini, biznes və investorlar üçün biznes mühitinin vəziyyəti, əhalinin islahatlara etimadının səviyyəsi və dövlət idarəetmə institutları və yerli hakimiyyət orqanlarının keyfiyyətini müəyyən etmək üçün ayrıca sorğular keçirilir. Bu mərhələdə də region maksimum 50 bal "toplaya" bilər.

Qazaxıstanın "Kursiv.kz" xəbər agentliyi Qazaxıstan regionlarının maliyyə-iqtisadi vəziyyəti, biznesin inkişafı göstəriciləri, sakinlərin sosial vəziyyəti və həyat səviyyəsi baxımından reytinqini tərtib edib. Ölkənin coğrafi xüsusiyyətlərinə görə regional inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə fərqlənir. Reytinqin liderləri neft hasilatı və sənaye rayonları olmuşdur.

Reytinq Qazaxıstanın 16 regionunun, o cümlədən 14 vilayət və iki respublika əhəmiyyətli şəhərinin hazırkı vəziyyətini xarakterizə edən 10 əsas göstərici üzrə tərtib edilmişdir ki, burada da üç sektor - maliyyə-iqtisadi vəziyyət, biznesin inkişafı göstəriciləri və sakinlərin həyat səviyyəsi üzrə 10 regional inkişafın indikatoru seçilmişdir.

Reytinq bal sisteminə əsaslanır, hər bir göstərici üzrə 10-a qədər bal verilməklə ən yaxşı nəticə göstərən rayon müəyyən edilir. Reytinq iştirakçılarının qalan hissəsi maksimum baldan mütənasib olaraq azaldılmış liderin göstəricisinə nisbətən qiymət almışdır. Ümumilikdə, regionlar maksimum 100 bal toplaya bilər [15].

Almaniya təcrübəsi. Regional inkişafın sosial-iqtisadi indeksinin hesablanmasında faydalı təcrübə kimi Almaniyanın regional siyasətini misal göstərmək olar. Bu ölkədə problemli sahələrə maliyyə yardımı "Ərazi iqtisadi strukturunun təkmilləşdirilməsi üzrə birgə tapşırıq" deyilən proqram çərçivəsində həyata keçirilir. Eyni zamanda, problemli sahələrin ayrılması dəqiq inteqral göstəricinin hesablanmasına əsaslanır.

Xüsusi göstəricilər kimi, üç qrup göstəricilərdən istifadə olunur:

- regional əmək bazarlarını xarakterizə edən göstəricilər;
- ümumi istehsalın və ya gəlirin göstəriciləri;

- infrastruktur göstəriciləri.

Xüsusi göstəricilər əsasında təxminən iyirmi müxtəlif inteqral göstəricilər hesablanır. Bu inteqral göstəricilər xüsusi göstəricilər toplusuna görə (adı çəkilən üç qrupdan seçilir), transformasiya üsullarına görə (yalnız normalaşdırma və standartlaşdırmadan istifadə olunur) və ümumiləşdirilməsi variantlarına görə fərqlənir.

Problemli bölgələri müəyyən etmək üçün inteqral göstəricinin hesablanması üçün hansı modeldən istifadə ediləcəyi ilə bağlı qərar əsasən siyasi mülahizələr əsasında qəbul edilir.

Böyük Britaniya təcrübəsi. Böyük Britaniyada işsizlik səviyyəsindən asılı olaraq ərazilərə maliyyə yardımının göstərilməsi həyata keçirilir. Belə ki, regionlara cüzi yardımların verilməsi yeni iş yerləri yaradan investisiya layihələrinin cəlb edilməsinə və beləliklə, problemli ərazilərdə iqtisadiyyatın strukturunu dəyişməyə imkan yaratmır. Nəticədə, müəyyən illər ərzində böhranın təsiri altında belə ərazilər yenidən problemli ərazilər siyahısına düşür və bəziləri dəfələrlə bunu təkrar edir [14].

Hollandiya təcrübəsi. Hollandiyada regionların sosial-iqtisadi inkişaf indeksini hesablamaq üçün Aİ standartlarına uyğun yalnız 2 göstəricidən istifadə olunur: işsizlik səviyyəsi və adambaşına düşən regionun ümumi məhsul buraxılışı. Bununla belə, Hollandiyanın

regionlarında adambaşına düşən ümumi məhsul buraxılışı göstəricisi üzrə regionun geriləməsinin qiymətləndirilməsində qeyri-müəyyənliklə üzləşdilər. Belə ki, adambaşına düşən ümumi məhsul buraxılışı göstəricisinə görə ən geridə qalmış əyalətlərindən biri nəinki bu ölkədə, həm də bütün Avropa İttifaqında liderdir. Bunun səbəbi regionun ümumi məhsulunun əsasən təbii qaz hasilatı hesabına formalaşması və onun satışından əldə olunan gəlirin çox hissəsinin birbaşa mərkəzi hökumətə getməsidir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, başqa əyalətin sakinləri kənarda (qonşu əyalətdə) işləyərkən, nəticədə regionda adambaşına düşən ümumi məhsul buraxılışı yüksək gəlir əldə olunmasına imkan yaradır və bu vilayət Aİ-da sonuncu yerlərdən birini tutur. Problemli regionların seçilməsi meyarı kimi, əhalinin gəlir göstəricisi də uyğun gəlmir, çünki Hollandiyada bu göstəricidə regionlararası fərq az təşkil edir. Nəticədə, işsizlik səviyyəsi əsas göstərici kimi çıxış edir və buna müvafiq olaraq bir neçə regionun geridə qalması ilə müşahidə olunur [14].

1.2. Regionların sosial-iqtisadi inkişaf reytinqinin müəyyən edilməsinin metodologiyası

Regionların sosial-iqtisadi inkişaf indeksinin hesablanmasının metodologiyası və metodiki təminatı üçün əsas kimi dayanıqlı inkişafın (sosial inkişafı təmin etməklə iqtisadiyyatın artımı) göstəricilərinin işlənib hazırlanması və onların birləşdirilməsi (inteqrasiya) nəzəriyyəsi və praktikasından istifadə olunur [5].

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının müqayisəli qiymətləndirilməsi məqsədilə 2019-cu il üzrə ölkənin 8 iqtisadi, 52 inzibati rayonu və 9 respublika tabeli şəhəri üzrə iqtisadi, sosial və infrastruktur göstəriciləri toplanmışdır. Tədqiqata paytaxt Bakı şəhəri daxil edilməmişdir ki, bu şəhər də öz inkişaf səviyyəsinə görə respublikanın digər bölgələrini xeyli qabaqlayır. Eyni zamanda əvvəllər işğal altında olmuş iqtisadi rayonlar, əsasən də köhnə təsnifata görə - Yuxarı Qarabağ və Kəlbəcər-Laçın haqqında tam statistik məlumatların olmaması onların tədqiq edilməsinə imkan verməmişdir.

Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf indeksi 3 sektorial sub-indeksdən ibarətdir: iqtisadi, sosial və infrastruktur. Üç sektorial sub-indeksin hər biri birbaşa bir neçə əsas göstərici və ya alt-indeks əsasında konkret inkişaf sahəsini təmsil edir və birlikdə onlar ekspert qiymətləndirmə payı nəzərə alınmaqla Regionların Sosial-

İqtisadi İnkişafının İndeksini (Sİİ) təşkil edir. Ümumilikdə, 19 əsas göstəricidən istifadə olunmuşdur.

1. İqtisadi sub-indeksə 7 alt-indeks daxildir:

1.1. Məhsulun ümumi buraxılışı (hər nəfərə, min manatla);
1.2. Əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri (hər nəfərə, min manatla);
1.3. İqtisadiyyatda muzdla işləyənlərin sayı (min nəfər);
1.4. Əsas kapitala investisiyalar (hər nəfərə, min manatla);
1.5. Təsərrüfat subyektlərinin sayı (rayon əhalinin hər 1000 nəfərinə);
1.6. Əhalinin nominal gəlirləri (hər nəfərə, min manat);
1.7. Pərakəndə ticarət dövriyyəsi (hər nəfərə, min manat).

2. Sosial sub-indeksə aşağıdakı 9 alt-indeks da-xildir:

2.1. Əhalinin hər 10000 nəfərinə düşən ambulator-poliklinik müəssisələrin gücü;
2.2. Əhalinin hər 10000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı;
2.3. Əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayı;

2.4. Əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı;

2.5. Məktəbəqədər təhsil müəssisələrilə təminat (100 yerə düşən uşaq hesabı ilə);

2.6. Əyani ümumi təhsil müəssisələri ilə təminat (təhsil alan hər 1000 nəfərinə);

2.7. İqtisadi rayonlar üzrə yaşayış evlərinin istifadəyə verilməsi (hər 100 nəfərinə, kv.metr);

2.8. Məişət-içməli məqsədlərə istifadə olunan su (bir sakinə düşən, kub m.);

2.9. Hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı, nəfər.

3. İnfrastruktur sub-indeksə aşağıdakı 3 alt-indeks daxildir:

3.1. Avtomobil yollarının uzunluğu (km);

3.2. Poçt şöbələrinin sayı (əhalinin hər 10000 nəfərinə, vahid);

3.3. Parkların sayı (əhalinin hər 10000 nəfərinə, vahid).

Siyahıdan istənilən göstəricinin dəyərini 1 ilə 100 arasında olan alt-indeksə çevirmək üçün (bu da müxtəlif göstəriciləri toplamağa imkan verəcək) aşağıdakı düsturdan istifadə etmək olar:

$$[(V_i - V_{min})/(V_{max}-V_{min})] *100, \qquad (1.1)$$

Burada “min” və “max” tədqiq olunan bütün regionların göstəricilərinin minimum və maksimum qiymətidir.

Tədqiq olunan bütün göstəricilər müsbət göstəricilərdir, yəni yüksək rəqəmlər daha yüksək inkişaf səviyyəsini əks etdirir. Deməli, iqtisadi rayonun (şəhərin və inzibati rayonun) sosial-iqtisadi inkişaf və onun komponentləri üzrə digər regionlarla (şəhər və rayonlarla) müqayisədə “100” ən yaxşı, “1” isə ən pis göstəricilərə malik olduğunu ifadə edir.

Gələcəkdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf göstəricisinin hesablanmasını davam etdirmək və illər üzrə müqayisə apara bilmək üçün hər bir göstərici üzrə minimum alt-indeks hesablanarkən faktiki minimum göstəricidən 20% çıxırıq və maksimum göstəricini də 20% artırırıq [3]:

$$V_{min} = V_{min\ fakt} - 0{,}2 * V_{min\ fakt}\ ; \qquad V_{max} = V_{max\ fakt} + 0{,}2 * V_{max\ fakt}$$

Sosial-iqtisadi inkişafın yekun inteqral İndeksinin göstəricisi bu sub-indekslərin orta çəkisi kimi hesablanır.

1. İqtisadi İnkişaf sub-indeksi

Bu sub-indeks yeddi alt-indeksin orta qiyməti kimi hesablanır:

1.1. Məhsulun ümumi buraxılışı (hər nəfərə, min manatla) (MÜB)- İqtisadiyyatın əsas sahələrində istehsal edilmiş məhsul və xidmətlərin əhalinin hər nəfərinə düşən dəyəri. $V_{min\ fakt}$ = 1043,92, $V_{max\ fakt}$= 24102,72.

1.2. Əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri (hər nəfərə, min manatla) (ÖXD)- Əhalinin sifarişi ilə, onun şəxsi tələbatını ödəmək üçün göstərilən və haqqı əhali tərəfindən ödənilən xidmətlər (məişət xidmətləri daxil olmaqla) əhali sayına nisbəti kimi ifadə olunur. $V_{min\ fakt}$ = 171,3 , $V_{max\ fakt}$= 3258,12.

1.3. İqtisadiyyatda muzdla işləyənlərin sayı (min nəfər) (MİS)- İşəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslərin sayı. Ölkədə muzdlu işçilərin yüksək payı iqtisadi inkişafın qabaqcıl mərhələsini ifadə edə bilər.$V_{min\ fakt}$ = 2,24, $V_{max\ fakt}$= 66,6.

1.4. Əsas kapitala investisiyalar (hər nəfərə, min manatla) (ƏKİ) -Bütün növ əsas vəsaitlərin alınmasına, yaradılmasına və istehsalına yönəldilmiş

xərclərin məcmusunun əhali sayına nisbəti kimi ifadə olunur. $V_{min\ fakt}$ = 103,99, $V_{max\ fakt}$= 9880,15.

1.5. Təsərrüfat subyektlərinin sayı (rayon əhalisinin hər 1000 nəfərinə) (TSS) - hər 1000 sakinə bölünən bütün mülkiyyət formalarından olan hüquqi şəxslər və fərdi sahibkarlar. $V_{min\ fakt}$ = 43,01, $V_{max\ fakt}$= 172,22.

1.6. Əhalinin nominal gəlirləri (hər nəfərə, min manatla) (ƏNG)- Əhalinin gəlirləri və xərcləri balansı əhalinin gəlirləri, xərcləri və qənaətlərinin həcmi və strukturunu xarakterizə edən əsas məlumat mənbələrindən olmaqla əhalinin həyat səviyyəsinin sosial-iqtisadi təhlili üçün vasitələrdən biridir. Əhali sayına nisbəti kimi ifadə olunur. $V_{min\ fakt}$ = 1312,8, $V_{max\ fakt}$= 7463, 23.

1.7. Pərakəndə ticarət dövriyyəsi (hər nəfərə, min manatla) (PTD) - əhaliyə onun istifadəsi və ya istehlakı üçün yeni və ya istifadə olunmuş malların emal edilmədən satışını əks etdirir. Əhali sayına nisbəti kimi ifadə olunur. $V_{min\ fakt}$ = 890, $V_{max\ fakt}$= 9411,13

Bütün göstəricilər 2019-cu ilə aiddir və ARDSK-nın elektron məlumat bazasındadır. Bəzi nisbi göstəricilər, hansılar ki, "əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, hər nəfərə", "əsas kapitala investisiyalar, hər nəfərə", "təsərrüfat subyektlərinin sayı, rayon əhalisinin hər 1000 nəfərinə", "əhalinin nominal gəlirləri, hər

nəfərə", "pərakəndə ticarət dövriyyəsi, hər nəfərə" iki statistik ölçünün müqayisəsi kimi hesablanır: mütləq göstərici və müvafiq regionun əhalisi. Naxçıvan MR-ın inzibati rayonları üzrə müəyyən göstəricilərin əlçatan olmadığına görə müvafiq alt-indekslərin hesablanması zamanı bu rayonlar üçün Muxtar Respublikanın orta göstəricisindən istifadə edilmişdir.

Nəticə etibarilə, İqtisadi İnkişaf sub-indeksi aşağıdakı düsturla hesablanmışdır:

İİ= (MÜB + ÖXD + MİS + ƏKİ + TSS + ƏNG + PTD)/7

2. Sosial İnkişaf sub-indeksi

Bu sub-indeks 9 alt-indeksin orta qiyməti kimi hesablanır:

2.1. Əhalinin hər 10000 nəfərinə düşən ambulator-poliklinik müəssisələrin gücü (PM) - növbə üzrə ziyarətlərin sayı kimi ifadə edilir. Bu araşdırmada əhali sayı nəzərə alınmaqla nisbi göstərici kimi götürülmüşdür. Bölgənin tibbi xidmət potensialını ifadə edən əsas göstəricidən biridir. $V_{min\ fakt}$ = 4, $V_{max\ fakt}$= 1032,96.

2.2. Əhalinin hər 10000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı (XÇ) - xəstələrin stasionar müalicəsi üçün tibb müəssisələrində yerləşdirilmiş çarpayılardır. Əhali sayı nəzərə alınmaqla nisbi göstərici kimi götürülmüşdür. $V_{min\ fakt}$ = 11,04, $V_{max\ fakt}$= 256,2.

2.3. Əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayı (Tİ) - müalicə, sanitariya təşkilatlarında, sosial təminat müəssisələrində, məktəbəqədər müəssisələrdə, məktəblərdə, uşaq evlərində və s. yerlərdə işləyən orta tibbi təhsili olan bütün şəxslər daxil edilir. Əhali sayı nəzərə alınmaqla nisbi göstərici kimi götürülmüşdür. $V_{min\ fakt}$ = 6,96, $V_{max\ fakt}$= 143,04.

2.4. Əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı (HS) - müalicə, sanitariya təşkilatlarında, sosial təminat müəssisələrində, elmi tədqiqat institutlarında, tibbi kadr hazırlanması ilə məşğul olan müəssisələrdə, səhiyyə orqanları aparatında və s. yerlərdə işləyən, ali tibbi təhsili olan bütün həkimlər daxil edilir. Əhali sayı nəzərə alınmaqla nisbi göstərici kimi götürülmüşdür. $V_{min\ fakt}$ = 2,96, $V_{max\ fakt}$= 67,32.

2.5. Məktəbəqədər təhsil müəssisələri ilə təminat (100 yerə düşən uşaq hesabı ilə) (MT) - uşaq bağçalarında yerlərin sayı. Bölgənin məktəbəqədər uşaqların

sayına nisbəti kimi ifadə olunur: $V_{min\ fakt}$ = 40, $V_{max\ fakt}$= 134,4.

2.6. Əyani ümumi təhsil müəssisələri ilə təminat (təhsil alan hər 1000 nəfərə), (ƏT) – təhsil müəssisələrin sayı ilə onlarda təhsil alan şagirdlərin sayına nisbətən hesablanır: $V_{min\ fakt}$ = 0,54, $V_{max\ fakt}$= 18,6.

2.7. İqtisadi rayonlar üzrə yaşayış evlərinin istifadəyə verilməsi (hər 100 nəfərə, kv.metr) (YE) - ictimai rifahın əsas göstəricilərindəndir, əhali sayına nisbəti kimi ifadə olunur: $V_{min\ fakt}$ = 0,15, $V_{max\ fakt}$= 345,27.

2.8. Məişət-içməli məqsədlərə istifadə olunan su (bir sakinə düşən, kub m.) (İS) - məişətdə istifadə etmək və içmək üçün bir sakinin bir il ərzində istifadə etdiyi suyun həcmi ilə ölçülmüşdür: $V_{min\ fakt}$ = 1,52, $V_{max\ fakt}$= 130,08.

2.9. Hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı, nəfər (İnt) – Müasir dövrdə ictimai rifahın əsas göstəricisidir. $V_{min\ fakt}$ = 56,88, $V_{max\ fakt}$= 107,52.

Burada göstərilən alt-indekslərinin göstəriciləri 2019-cu ilə aiddir və ARDSK-nin elektron məlumat bazasından əldə edilmişdir.

Nəticə etibarilə, Sosial İnkişaf sub-indeksi aşağıdakı kimi hesablanmışdır:

Sİİ = (PM + XÇ + Tİ + HS + MT + ƏT + YE + İS + İnt)/9

3. İnfrastruktur İnkişaf sub-indeksi

Bu sub-indeks 3 alt-indeksin ortalaması kimi hesablanır.

3.1. Avtomobil yollarının uzunluğu (km) (AY) - ümumi istifadədə olan avtomobil yollarının uzunluğuna şəhərlərin küçələri və sənaye, tikinti, kənd təsərrüfatı və sair təşkilatlara məxsus olan yollardan başqa, ölkənin bütün yol şəbəkəsi daxil edilir. $V_{min\ fakt}$ = 5,6, $V_{max\ faktt}$= 638,4.

3.2. Poçt şöbələrinin sayı (əhalinin hər 10000 nəfərinə, vahid) (PŞ) - poçt göndərişlərinin qəbulunu, çeşidlənməsini, daşınmasını, ünvan sahibinə çatdırılmasını təmin edən obyektlərin və nəqliyyat vasitələrinin vahid texnoloji sistemidir. Əhali sayı nəzərə alınmaqla nisbi göstərici kimi götürülmüşdür. $V_{min\ fakt}$ = 0,28, $V_{max\ fakt}$= 5,08.

3.3. Parkların sayı (əhalinin hər 10000 nəfərinə, vahid) (PS) - iqtisadi rayonun (respublika tabeli şəhərin və ya inzibati rayonun) ərazisində salınmış parklar və bu ərazidə yerləşən milli parkların toplam sayının nisbi göstəricisidir. Bütün yaş qruplarından olan əhali üçün parklar asudə vaxtın keçirilməsi

baxımından ən vacib infrastruktur obyektləri sırasındadır, çünki özündə gəzinti, istirahət, əyləncə, idman və digər bu kimi sosial fəaliyyətlər üçün imkanları birləşdirir. Parkların sayının artması həm də yaşıllıq zonalarının genişləndirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. $V_{min\ fakt} = 0$, $V_{max\ fakt} = 4{,}71$.

Burada göstətilən alt-indekslərinin göstəriciləri 2019-cu ilə aiddir və ARDSK-nın elektron məlumat bazasından əldə edilmişdir.

Nəticə etibarilə, infrastruktur inkişaf sub-indeksi aşağıdakı kimi hesablanmışdır:

$$\textbf{İF= (AY+ PŞ+ PS)/3}$$

Xüsusi çəkilərin müəyyən olunması

Sosial İqtisadi İnkişaf indeksini formalaşdıran sub-indekslərə çəki vermək məqsədi ilə keçirilmiş sorğuda – aşağıda soyadları əlifba sırası ilə sadalanan 18 ekspert iştirak etmişdir:

1. Rəsmiyyə Abdullayeva, i.f.d, dosent (AMEA İqtisadiyyat İnstitutunun "Həyat səviyyəsinin sosial-iqtisadi problemləri» şöbəsinin müdiri).
2. İsa Alıyev, i.e.d, prof. (AMEA İqtisadiyyat İnstitutunun "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi" şöbəsinin müdiri).

3. Leyli Allahverdiyeva, i.f.d., dosent (AMEA İqtisadiyyat İnstitutunun elmi katibi).

4. Müşfiq Atakişiyev, i.e.d, prof. (AMEA İqtisadiyyat İnstitutunun "Xidmət sahələrinin inkişafı problemləri" şöbəsinin müdiri).

5. Məyiş Əhmədov, i.e.d, prof. (Azərbaycan Dövlət İqtisad Universitetin "İqtisadiyyatın tənzimlənməsi» kafedrasının müdiri).

6. Nəsimi Əhmədov, i.f.d., dosent (AMEA İqtisadiyyat İnstitutunun "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsinin aparıcı elmi işçisi).

7. Arif Ələkbərov, i.e.d, prof. (ADNSU-nun İqtisadiyyat və menecment" kafedrasının müdiri).

8. Tərbiz Əliyev, i.e.d, prof. (AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri).

9. Fuad Qəmbərov, i.e.d, prof. (AMEA İqtisadiyyat İnstitutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsinin müdiri).

10. Vilayət Ramazanov, i.f.d., (AMEA İqtisadiyyat İnstitutunun "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsinin aparıcı elmi işçisi).

11. Məhəbbət Məmmədov, i.e.d, prof. (Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Biznesin iqtisadiyyatı və menecment" kafedrasının müdiri).

12. Akif Musayev, i.e.d, prof., AMEA-nın müxbir üzvü (AMEA İqtisadiyyat İnstitutunun "Post-konflikt Ərazilərin Bərpası" Elmi Mərkəzinin rəhbəri).

14. Ağarza Rüstəmov, i.e.d, prof. (AMEA İqtisadiyyat İnstitutunun "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi" şöbəsinin baş elmi işçisi).

15. Qənimət Səfərov, i.e.d, prof. (Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "İqtsadiyyat və menecment" kafedrasının müdiri).

16. Qəzənfər Suleymanov, i.e.d, prof. (AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və Inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsi).

17. Paşa Tanrıverdi a.e.i. (AMEA İqtisadiyyat İnstitutunun "Maliyyə, pul-kredit siyasəti" şöbəsi).

18. Gülşən Yüzbaşıyeva, i.e.d, prof. (AMEA İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsinin müdiri).

Regionların sosial-iqtisadi inkişaf indeksinin hazırlanmasında istifadə edilən 3 sub-indeksə (iqtisadi, sosial və infrastruktur) əhəmiyyətinə görə 0-1 aralığında çəki verilmişdir.

Cədvəl 1.1

Ekspert sorğusu əsasında müəyyən olunmuş xüsusi çəkilər

Sosial-İqtisadi İnkişaf Indeksi (Sİİ)	Orta çəki	Minimum çəki	Maksimum çəki	Mod
1. İqtisadi İnkişaf Sub-indeksi (İİ)	0,4	0,3	0,5	0,4
2. Sosial İnkişaf Sub-indeksi (Sİ)	0,32	0,2	0,5	0,3
3. İnfrastruktur İnkişaf Sub-indeksi (İF)	0,28	0,1	0,5	0,3

Qeyd: *cədvəl müəllif tərəfindən ekspert sorğusu əsasında tərtib edilmişdir.*

Yekunda Azərbaycanın hər bir iqtisadi rayonu, şəhəri və inzibati rayonu üzrə **Sosial-İqtisadi İnkişaf İndeksi** ekspert sorğusu əsasında müəyyənləşdirilmiş çəkilərə müvafiq olaraq aşağıdakı düsturla hesablanmışdır:

$$\textbf{Sİİ} = 0{,}4*\textbf{İİ} + 0{,}32*\textbf{Sİ} + 0{,}28*\textbf{İF}$$

Sİİ -nin qiymətlərinə müvafiq olaraq, Azərbaycanın iqtisadi rayonları, respublika tabeli şəhərləri və inzibati rayonları yüksək çəkidən aşağı çəkiyə doğru sıralanmışdır.

II FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ VƏ İNZİBATİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAF REYTİNQİNİN HAZIRLANMASI

2.1. Azərbaycanın iqtisadi və inzibati rayonlarında iqtisadi, sosial və infrastruktur inkişafı sub-indekslərinin müəyyən edilməsi

1. İqtisadi İnkişaf Sub-indeksi (İİ)

Ekspert sorğusunda **İqtisadi İnkişafa** sub-indekslər arasında ən yüksək çəki verilmişdir (40%) və beləliklə, o, Sosial-İqtisadi İnkişaf üçün ən mühüm göstərici kimi müəyyənləşdirilmişdir. Respublika tabeli şəhərlərin və inzibati rayonların İqtisadi İnkişaf sub-indeksi üzrə sıralanması cədvəl 2.1-də təqdim olunur.

Cədvəl 2.1

Respublika tabeli şəhərlərin və inzibati rayonların İqtisadi İnkişaf sub-indeksi üzrə sıralanması (2019-ci il)

Yer	Şəhər və rayonlar	İİ	Yer	Şəhər və rayonlar	İİ
1	Naxçıvan şəhəri	59,29	31-32	Neftçala rayonu	18,08

2	Sumqayıt şəhəri	49,05	33	Ağcabədi rayonu	17,98
3	Naftalan şəhəri	37,05	34	Goranboy rayonu	17,91
4	Gəncə şəhəri	34,59	35	Ağdaş rayonu	17,55
5	Şirvan şəhəri	31,54	36	Şahbuz rayonu	17,47
6	Xızı rayonu	28,51	37	Şabran rayonu	17,40
7	Mingəçevir şəhəri	28,18	38	İsmayıllı rayonu	17,32
8	Bardə rayonu	26,13	39	Salyan rayonu	16,97
9	Biləsuvar rayonu	25,40	40	Sədərək rayonu	16,60
10	Abşeron rayonu	24,69	41	Qusar rayonu	16,49
11	Kürdəmir rayonu	24,48	42	İmişli rayonu	16,24
12	Xaçmaz rayonu	23,97	43	Kəngərli rayonu	16,17
13	Hacıqabul rayonu	23,27	44	Balakən rayonu	15,94
14	Siyəzən	22,87	45	Ordubad	15,90

	rayonu			rayonu	
15	Yevlax şəhəri	22,77	46	Samux rayonu	15,48
16	Tovuz rayonu	22,32	47	Ağstafa rayonu	15,20
17	Quba rayonu	21,68	48	Masallı rayonu	15,0
18	Göyçay rayonu	21,55	49	Zaqatala rayonu	14,94
19	Lənkəran şəhəri	21,27	50	Ağsu rayonu	14,78
20	Şəki şəhəri	21,10	51	Sabirabad rayonu	14,74
21	Şamaxı rayonu	20,96	52	Saatlı rayonu	14,57
22	Şəmkir rayonu	20,27	53	Daşkəsən rayonu	14,39
23	Culfa rayonu	19,40	54	Oğuz rayonu	14,23
24	Şərur rayonu	19,17	55	Ucar rayonu	13,93
25	Beyləqan rayonu	18,82	56	Gədəbəy rayonu	13,88
26	Qax rayonu	18,80	57	Astara rayonu	12,90

27	Qazax rayonu	18,65	58	Qobustan rayonu	11,76
28	Qəbələ rayonu	18,59	59	Zərdab rayonu	9,03
29	Cəlilabad rayonu	18,26	60	Yardımlı rayonu	7,40
30	Goygöl rayonu	18,09	61	Lerik rayonu	5,93
31-32	Babək rayonu	18,08			

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Respublika tabeli şəhərlərin və inzibati rayonların İqtisadi İnkişaf sub-indeksləri 5,93-59,29 aralığında dəyişir. Sub-indeksin orta qiyməti 20,1, median 18,08 (burada median 61 şəhər və rayonun sıralamasında ortada – 31-ci yerdə olan şəhərin və ya rayonun aldığı baldır). 22 şəhər və rayon orta qiymətdən yuxarıda, 39 rayon isə aşağıda yerləşir. Bu isə iqtisadi baxımdan müsbət amil hesab olunmur, çünki indeksin hesablanmasında əsas baza kimi mühüm iqtisadi göstəricilər götürülüb və Azərbaycanın bir çox rayonlarının bu göstəricilər üzrə geri qalması ölkənin regional inkişafında mövcud disbalansdan xəbər verir.

Azərbaycanın şəhərləri iqtisadi cəhətdən ən inkişaf etmiş ərazilər sayılır və İqtisadi İnkişaf sub-indeksin hesablanması düzgün mənzərəni əks etdirir. Cədvəl 2.1-dən göründüyü kimi, ilk beşliyə Naxçıvan şəhəri (59,29), Sumqayıt şəhəri (49,05), Naftalan şəhəri (37,05), Gəncə şəhəri (34,59), Şirvan şəhəri (31,54) daxildir.

Cədvəl 2.2

2019-cu il üzrə Azərbaycan şəhərlərinin İqtisadi İnkişaf sub-indeksi

Yer	Şəhərlər	İİ
1	Naxçıvan şəhəri	59,29
2	Sumqayıt şəhəri	49,05
3	Naftalan şəhəri	37,05
4	Gəncə şəhəri	34,59
5	Şirvan şəhəri	31,54
6	Mingəçevir şəhəri	28,18
7	Yevlax şəhəri	22,77
8	Lənkəran şəhəri	21,27
9	Şəki şəhəri	21,10

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Cədvəl 2.2-dən aydın görünür ki, şəhərlər arasında xal fərqi var, lider - Naxçıvan şəhəridir (ARDSK-nın məlumatlarında verilən göstəricilərin təhlili və

hesablanması nəticəsində). Belə ki, şəhəri lider mövqeyinə çıxaran 2 əsas göstəricisi oldu - əhalinin hər nəfərinə düşən məhsulun ümumi buraxılışı (min manatla) və əhalinin hər nəfərinə düşən pərakəndə ticarət dövriyyəsi (min manatla). Belə ki, 2019-cu ildə Naxçıvanda məhsulun ümumi buraxılışı əhalinin hər nəfərinə 20085,6 min manat, əhalinin hər nəfərinə düşən pərakəndə ticarət dövriyyəsi isə 7842,61 min manat təşkil etmişdir.

Sumqayıt şəhərinin ikinci yerdə olması isə layiq hesab olunur. Bu şəhər 131-dən çox istehsal müəssisəsi ilə Azərbaycanın neft-kimya istehsalı mərkəzidir. Sumqayıtda ölkənin kimya istehsalının mərkəzi olan Kimya Sənaye Parkı yerləşir ki, 2019-cu ilin sonuna burada investisiya portfeli 3,8 milyard ABŞ dollarından çox olmuşdur .

İqtisadi inkişaf sub-indeksində Sumqayıt şəhəri iqtisadiyyatda muzdla işləyənlərin sayı (min nəfər) göstəricisinə görə liderdir (82,75 bal). Bu şəhərdə muzdla işləyənlərin sayı 2019-cu ildə 55,5 min nəfərdən ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, indeksin hesablanması üçün seçilmiş bütün iqtisadi göstəricilər üzrə Sumqayıt şəhəri ilk beşliyə daxildir. Təkcə təsərrüfat subyektlərinin sayı (əhalinin hər 1000 nəfərinə) göstəricisinə görə, Sumqayıt 17-ci yerdədir (46,96 bal) və bu göstərici 2019 – cu ildə 103,69 nəfər təşkil etmişdir.

İqtisadi inkişaf sub-indeksi üzrə siyahıda üçüncü yerdə Naftalan şəhəri qərarlaşmışdır. Belə ki, Naftalan şəhəri əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri (hər nəfərə, min manatla) göstəricisinə görə rayonların siyahısında liderdir və bu rəqəm 2715,10 min manat təşkil edir. Əhalinin nominal gəlirlərinə (hər nəfərinə, min manatla) görə də Naftalan şəhəri birinci yerdədir və 2019-cu ildə bu göstərici 6219,36 min manat təşkil etmişdir. Ancaq onu da qeyd etmək lazımdır ki, iqtisadiyyatda muzdla işləyənlərin sayına görə Naftalan şəhəri rayon və şəhərlərin siyahısında sonuncu yerdədir (2,80 min nəfər 2019-cu ildə).

Sıralamada dördüncü yerdə Gəncə şəhəridir. Gəncə şəhərinin ön sıralarda olması izahatının verilməsi burada artıq olardı.

İqtisadi inkişaf sub-indeksinin sıralamasında beşinci yerdə Şirvan şəhəri qərarlaşıb. Şirvan şəhəri tərtib olunan siyahıda məhsulun ümumi buraxılışı göstəricisinə görə ilk beşliyə daxildir və bu göstərici həmin rayonun əhalisinin adambaşına 9879,7 min manata bərabərdir. Pərakəndə ticarət dövriyyəsi (hər nəfərə, min manatla) göstəricisinə görə isə Şirvan şəhəri rayon və şəhərlərin siyahısında ikinci yerdədir və 2019-cu ildə bu göstərici 3490,49 min manat təşkil etmişdir.

İlk onluğa Xızı rayonu (28,51), Mingəçevir şəhəri (28,18), Bərdə rayonu (26,13), Biləsuvar rayonu (25,40)

və Abşeron rayonu (24,69) daxildirlər. İqtisadi İnkişaf sub-indeksinə görə onluğa düşən bu şəhər və rayonlar müvafiq alt-indekslərə görə aparıcı yerlərdə müəyyənləşiblər. Məsələn, təsərrüfat subyektlərinin sayına görə Bərdə rayonu ölkədə üçüncüdür. Belə ki, rayon əhalisinin hər 1000 nəfərinə (125,52) bu göstərici bərabər hesab olunur. Ağdaş rayonu adambaşına düşən pərakəndə ticarət dövriyyəsi (min manat) göstəricisinə görə yaxşılar siyahısına daxil edilmişdir. Ağcabədi rayonu İqtisadi İnkişaf sub-indeksini formalaşdıran alt-indeks göstəricilər cədvəli üzrə sabit orta yer tutduğuna görə ilk onluğa daxil edilmişdir. Belə ki, digər rayonlar bəzi göstəricilər üzrə irəlidə, digərlərində xeyli geridə qalsa da, Ağcabədi rayonu ardıcıl olaraq orta yerlərdə bərqərar olmuşdur.

İqtisadi İnkişaf sub-indeksi üzrə reytinqdə orta qiymətdən, yəni 20,1 xaldan bir az yuxarıda olan rayonların siyahısında, təəssüflər olsun ki, Şəki şəhəri də var (21,10). Şəki şəhərini geriyə çəkən əsas göstərici – adambaşına məhsulun ümumi buraxılışıdır (min manatla), hansı ki, 2019-cu ildə bu şəhər üzrə 3087 min manat təşkil etmişdir. Həmin dövrdə Naxçıvan şəhəri üzrə bu göstərici 20085,6 min manat olmuşdur.

İqtisadi İnkişaf sub-indeksi üzrə reytinqdə son onluğu təşkil edən rayonlar bunlardır: Lerik rayonu (5,93), Yardımlı rayonu (7,40), Zərdab rayonu (9,03), Qobustan

rayonu (11,76), Astara rayonu (12,90), Gədəbəy rayonu (13,88), Ucar rayonu (13,93), Oğuz rayonu (14,23), Daşkəsən rayonu (14,39), Saatlı rayonu (14,57). Vurğulamaq lazımdır ki, Lerik rayonunun zəif nöqtələri bunlardır: adambaşına məhsulun ümumi buraxılışı (1681,8 min manat), əhalinin hər nəfərinə nominal gəlirləri (1849,82 min manat) və adambaşına pərakəndə ticarət dövriyyəsi (1346,21 min manat) göstəricilərə görə sondan əvvəlki yerdədir, əhalinin hər nəfərinə göstərilən ödənişli xidmətlərin dəyərinə görə Lerik sonuncu yerdədir -235,14 min manat. Lerik rayonunun nisbətən yaxşı göstəricisi muzdla işləyənlərin sayıdır - 5,90 min nəfər.

Ölkənin iqtisadi rayonlarının İqtisadi İnkişaf sub-indeksi üzrə sıralamasına gəlincə, Abşeron iqtisadi rayonu birinci yerdədir, bu da baxılan sub-indeksdə Abşeron rayonunun və Sumqayıt şəhərinin ilk beşlikdə olmasının nəticəsidir (bax cədvəl 2.3-ə). Naxçıvan MR ikinci yerdədir, Lənkəran iqtisadi rayonu isə autsayderdir. Birinci yerdə olan Abşeron iqtisadi rayonu və sonuncu yeri tutan Lənkəran iqtisadi rayonunun xalları arasında fərq 44,18-dir.

Ümumiyyətlə, Abşeron iqtisadi rayonu İqtisadi İnkişaf sub-indeksini formalaşdıran 7 alt-indeksin 4-ü - adambaşına məhsulun ümumi buraxılışı (min manatla), əhalinin hər nəfərinə göstərilən ödənişli xidmətlərin dəyəri (min manatla), adambaşına əsas kapitala yönəldilmiş

investisiyalar (min manatla), rayon əhalisinin hər 1000 nəfərinə düşən təsərrüfat subyektlərinin sayı üzrə birinci yerdədir. Əhalinin hər nəfərinə düşən nominal gəlirləri (min manatla) və adambaşına pərakəndə ticarət dövriyyəsi (min manatla) göstəriciləri üzrə lider Naxçıvan MR-dır. İqtisadiyyatda muzdla işləyənlərin sayına (min nəfər) görə isə Aran iqtisadi rayonu dominant yerdədir.

Cədvəl 2.3

İqtisadi rayonların İqtisadi İnkişaf sub-indeksi üzrə sıralaması (2019-cu il)

Yer	İqtisadi rayonlar	İİ
1	Abşeron iqtisadi rayonu	64,17
2	Naxçıvan MR	51,10
3	Gəncə-Qazax iqtisadi rayonu	42,45
4	Aran iqtisadi rayonu	42,09
5	Quba-Xaçmaz iqtisadi rayonu	35,43
6	Şəki-Zaqatala iqtisadi rayonu	27,47
7	Dağlıq Şirvan iqtisadi rayonu	25,44
8	Lənkəran iqtisadi rayonu	19,99

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında hesablanmış və tərtib edilmişdir.*

2. Sosial İnkişaf sub-indeksi

Ekspert sorğusunda Sosial İnkişafa sub-indekslər arasında 32% çəki verilmişdir və bu mənada o, Sosial-İqtisadi İnkişaf İndeksi üçün ikinci yerdə müəyyənləşdirilmiş göstərici statusundadır. Respublika tabeli şəhərlərin və inzibati rayonların Sosial İnkişaf sub-indeksi üzrə sıralaması cədvəl 2.4-də təqdim olunur.

Cədvəl 2.4

Respublika tabeli şəhərlərin və inzibati rayonların Sosial İnkişaf sub-indeksi üzrə sıralaması
(2019-cu il)

Yer	Şəhər və rayonlar	Sİ	Yer	Şəhər və rayonlar	Sİ
1	Naxçıvan şəhəri	**67,61**	32	Zərdab rayonu	**21,30**
2	Sumqayıt şəhəri	**33,08**	33	Ağstafa rayonu	**21,18**
3	Şirvan şəhəri	**30,93**	34	Xaçmaz rayonu	**21,11**

4	Mingəçevir şəhəri	**30,66**	35	Lənkəran şəhəri	**20,94**
5	Abşeron rayonu	**29,69**	36	Şabran rayonu	**20,56**
6-7	Xızı rayonu	**28,19**	37	Yardımlı rayonu	**20,41**
6-7	Qazax rayonu	**28,19**	38	Kürdəmir rayonu	**20,18**
8	Şahbuz rayonu	**27,75**	39	Beyləqan rayonu	**20,11**
9	Qax rayonu	**26,94**	40	Quba rayonu	**19,91**
10	Naftalan şəhəri	**26,74**	41	Neftçala rayonu	**19,89**
11	Oğuz rayonu	**26,00**	42	Ağsu rayonu	**19,87**
12	Zaqatala rayonu	**25,57**	43	Yevlax şəhəri	**19,85**
13	Qusar rayonu	**25,28**	44	Qobustan rayonu	**19,55**
14	Gəncə şəhəri	**25,12**	45	Ağdaş rayonu	**19,49**
15	Şəki şəhəri	**24,57**	46	Göyçay rayonu	**19,40**
16-	Ordubad	**24,44**	47	Gədəbəy	**19,26**

17	rayonu			rayonu	
16-17	Goygöl rayonu	**24,44**	48	İsmayıllı rayonu	**18,92**
18	Culfa rayonu	**24,37**	*49*	Kəngərli rayonu	**18,90**
19	Bərdə rayonu	**24,32**	50	Biləsuvar rayonu	**18,60**
20	Daşkəsən rayonu	**24,30**	51	Babək rayonu	**18,30**
21	Tovuz rayonu	**23,89**	52	Samux rayonu	**18,24**
22	Siyəzən rayonu	**23,60**	53	Hacıqabul rayonu	**17,98**
23	Şəmkir rayonu	**23,37**	54	İmişli rayonu	**17,78**
24	Salyan rayonu	**22,91**	55	Ucar rayonu	**17,65**
25	Şərur rayonu	**22,69**	56	Saatlı rayonu	**17,56**
26	Lerik rayonu	**22,32**	57	Cəlilabad rayonu	**15,63**
27	Goranboy rayonu	**22,29**	*58*	Sədərək rayonu	**14,87**
28	Şamaxı rayonu	**22,20**	59	Masallı rayonu	**14,75**

29	Qəbələ rayonu	**22,04**	60	Sabirabad rayonu	**14,39**
30	Balakən rayonu	**21,51**	61	Astara rayonu	**13,14**
31	Ağcabədi rayonu	**21,35**			

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, Sosial İnkişaf sub-indeksin ilk onluğunda şəhərlər və rayonların sayı bərabərləşmişdir. Reytinqin ön sıralarında 4 şəhər yer alıb. İqtisadi İnkişaf sub-indeksində olduğu kimi, burada da lider Naxçıvan şəhəridir (67,61). Qeyd etmək lazımdır ki, Naxçıvan şəhəri ilə siyahıda ikinci yerdə yerləşən Sumqayıt şəhərinin (33,08) xalları arasında bu sub-indeksdə xeyli dərəcədə fərq mövcuddur. Belə ki, bu iki şəhər arasında 34,53 xal fərqi var. Şirvan şəhəri 30,93 xalla üçüncü yerdə, dördüncü yerdə Mingəçevir şəhəri (30,66), beşinci yerdə isə haqlı olaraq Abşeron rayonu müəyyənləşmişdir.

Sosial İnkişaf sub-indeksini formalaşdıran 9 alt-indekslərin beşinə görə (əhalinin hər 10000 nəfərinə düşən ambulator-poliklinik müəssisələrin gücü, əhalinin hər 10000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı,

əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayı, əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı, əhalinin hər 100 nəfərinə yaşayış evlərinin istifadəyə verilməsi) Naxçıvan liderdir, bu da onu bu sub-indeks üzrə birinci yerdə müəyyənləşdirmişdir (ARDSK-nın məlumatlarında verilən göstəricilərin təhlili və hesablanması nəticəsində). Sadalanan göstəricilər 2019-cu ildə Naxçıvanda müvafiq olaraq rəqəmlərlə belə ifadə olunur: 860,8 gəliş, 213,5 ədəd, 119,2 nəfər, 56,1 nəfər, 287,72 kv.metr.

Məktəbəqədər təhsil müəssisələri ilə təminat, 100 yerə düşən uşaq hesabı ilə göstəricisinə görə birinci yerdə Şamaxı rayonu (2019-cu ildə -112), bir sakinə düşən məişət-içməli məqsədlərə istifadə olunan su göstəricisi üzrə Abşeron rayonu qabaqcıl yerdədir (2019-cu ildə 109 kub m.). Qeyd etmək lazımdır ki, Abşeron rayonu Sosial İnkişaf sub-indeksinin ilk beşliyinə daxil olsa da, əyani ümumi təhsil müəssisələri ilə təminat göstəricisinə görə rayonlar arasında sonuncu yerdədir (2019-cu ildə təhsil alan hər 1000 nəfərə 0,68). Gəncə şəhəri hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə liderdir (2019-cu ildə 89,6 nəfər). Eyni zamanda məktəbəqədər təhsil müəssisələri ilə təminatda Gəncə şəhəri siyahıda sonuncu yerdə olduğuna görə bu reytinqdə o, ilk beşliyə düşməmiş və 14-cü yerdə təsdiqini tapmışdır.

Ən maraqlısı odur ki, İqtisadi İnkişaf sub-indeksində sonuncu yerdə olan Lerik rayonu sosial göstəricilər arasında vacib sayılan - əyani ümumi təhsil müəssisələri ilə təminat göstəricisinə görə birinci yerdədir. Belə ki, 2019-cu ildə Lerik rayonunda təhsil alan hər 1000 nəfərə əyani ümumi təhsil müəssisələri ilə təminat 15,45 təşkil edir. Eyni zamanda hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı üzrə ən axırda olduğuna görə Lerik bu sub-indeksdə 26-cı yerdə müəyyənləşmişdir.

İlk onluğa eyni xalla (18,19) Xızı və Qazax, Şahbuz (27,75), Qax (26,94) rayonları və Naftalan şəhəri (26,74) də daxildir. Sağlamlıq turizmi sahəsində Azərbaycanın əsas mərkəzlərindən biri sayılan Naftalan şəhərinin Sosial İnkişaf sub-indeksi üzrə ilk onluğa düşməsi haqlıdır.

Ümumilikdə, respublika tabeli şəhərlərin və inzibati rayonların Sosial İnkişaf sub-indeksləri 13,14-67,61 aralığında dəyişir və bu da İqtisadi İnkişaf sub-indekslə müqayisədə (7,21-48,03) yuxarı nəticədədir. Sub-indeksin orta qiyməti -23, median isə -21,35-dir. Cədvəldə orta qiymətindən yuxarıda yerləşən rayonların sayı -23, aşağıda isə 38 təşkil edir ki, bu da onların sosial inkişaf üzrə səviyyəsinin qənaətbəxş olmadığını əks etdirir.

Vurğulamaq lazımdır ki, Astara (13,14), Sabirabad (14,39), Masallı (14,75), Sədərək (14,87) və Cəlilabad (15,63) rayonları reytinqin son beşliyindədir. Sədərək rayonu əhalinin hər 10000 nəfərinə düşən orta tibb

işçilərinin sayı göstəricisinə görə (2019-cu ildə 8,7 nəfər) sonda qərarlaşmış, Sabirabad rayonu isə məktəbəqədər təhsil müəssisələri ilə təminat göstəricisi üzrə (2019-cu ildə 100 yerə düşən uşaq hesabı ilə 61 təşkil edib) çox geridə qalmışdır. Masallı 3 göstərici - əhalinin hər 10000 nəfərinə düşən xəstəxana çarpayılarının sayına (2019-cu ildə 14,8 ədəd), əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayına (2019-cu ildə 20,4 nəfər) və məişət-içməli məqsədlərə istifadə olunan suya (2019-cu ildə 2,9 kub.metr) görə geriləyir. Astara hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına (2019-cu ildə 74 nəfər), məişət-içməli məqsədlərə istifadə olunan suya (2019-cu ildə bir sakinə düşən su miqdarı 2,5 kub m təşkil edib), məktəbəqədər təhsil müəssisələri ilə təminat (2019-cu ildə 100 yerə düşən uşaq hesabı 64 nəfər olmuşdur) göstəricilər sayəsində cədvəlin aşağı sıralarında yerləşir. O ki, qaldı Cəlilabad rayonuna, onu son pillələrə gətirib çıxaran məişət-içməli məqsədlərə istifadə olunan suyun bir sakinə düşən miqdarı olmuşdur (2019-cu ildə 1,9 kub m). Bu rayon məhz bu göstəriciyə görə ən sonda yerləşir.

Cədvəl 2.5-dən göründüyü kimi, şəhərlər arasında xal fərqi əhəmiyyətli dərəcədə çoxdur. Belə ki, lider olan Naxçıvan şəhəri və sonda geriləyən Yevlax şəhəri arasında 47,76 xal fərqi mövcuddur. Yevlax şəhəri bir çox sosial alt-indekslərinə görə rayonlardan geri qalır. Qeyd etmək lazımdır ki, Yevlax şəhəri sosial alt-indekslər

Cədvəl 2.5

2019-cu ildə Azərbaycan şəhərləri üzrə Sosial İnkişaf sub-indeksi

Yer	Şəhərlər	Sİ
1	Naxçıvan şəhəri	67,61
2	Sumqayıt şəhəri	33,08
3	Şirvan şəhəri	30,93
4	Mingəçevir şəhəri	30,66
5	Naftalan şəhəri	26,74
6	Gəncə şəhəri	25,12
7	Şəki şəhəri	24,57
8	Lənkəran şəhəri	20,94
9	Yevlax şəhəri	19,85

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

blokuna daxil olan bu göstəricilərə görə: əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı, məktəbəqədər təhsil müəssisələr ilə təminat, 100 yerə düşən uşaq hesabı ilə və hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına

görə rayon və şəhərlər siyahısında 25-26-cı yerdə, bu blokun digər 6 göstəricilər reytinqdə isə aşağı pillələrdə yerləşir.

Ölkənin iqtisadi rayonlarının Sosial İnkişaf sub-indeksi bu sub-indeks üzrə respublika tabeli şəhərlərin və inzibati rayonların sıralamasını əks etdirir. Belə ki, sub-indeksin 58,86 qiyməti ilə Naxçıvan MR burada liderdir. 2-ci yerdə isə 13,55 xal fərqilə Abşeron iqtisadi rayonu müəyyənləşmişdir (45,31). Şəki-Zaqatala iqtisadi rayonu sıralamada 3-cü yerdədir. Bu iqtisadi rayonun 3-cü yerdə olma səbəbi onun Sosial İnkişaf sub-indeksini formalaşdıran 9 alt-indeksindən ikisi üzrə (əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayı və məktəbəqədər təhsil müəssisələrilə təminat) birinci, yerdə qalanlar üzrə isə orta yerlərdə olmasıdır. Sıralamanın sonuncusu isə Lənkəran iqtisadi rayonudur. Əyani ümumi təhsil müəssisələri ilə təminata (hər 1000 nəfərə 4,43) və yaşayış evlərinin istifadəyə verilməsinə (2019-cu ildə hər 100 nəfərə 19,17 kv.metr) görə 3-cü yerdə olsa da, digər göstəricilərdəki gerilik üzündən Lənkəran iqtisadi rayonunun Sosial sub-indeksi 18,81-ə bərabər olmuşdur (bax cədvəl 2.6-ya).

Cədvəl 2.6

İqtisadi rayonların Sosial İnkişaf sub-indeksi üzrə sıralaması (2019-ci il)

Yer	İqtisadi rayonlar	Sİ
1	Naxçıvan MR	58,86
2	Abşeron iqtisadi rayonu	45,31
3	Şəki-Zaqatala iqtisadi rayonu	36,34
4	Gəncə-Qazax iqtisadi rayonu	32,59
5	Quba-Xaçmaz iqtisadi rayonu	28,73
6	Aran iqtisadi rayonu	26,36
7	Dağlıq Şirvan iqtisadi rayonu	26,14
8	Lənkəran iqtisad irayonu	18,81

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

3. İnfrasrtuktur İnkişaf sub-indeksi

Bu sub-indeks Sosial-İqtisadi İnkişaf İndeksini formalaşdıran üçüncü mühüm indikatorudur. Ekspert sorğusuna əsasən bu sub-indəksə 28% çəki verilmişdir.

İnfrastruktur İnkişaf sub-indeksi rayonların sıralamasında maraqlı nəticələri əks etdirir. Əgər İqtisadi İnkişaf və Sosial İnkişaf sub-indekslərinin nəticələri gözlənilən idisə, bu sub-indeksın nəticələri tamam fərqlidir və ətraflı təhlilə ehtiyac duyulur. Belə ki, şəhər və rayonların İnfrastruktur İnkişaf sub-indeksləri 2,86-56,19 aralığında dəyişir. Sub-indeksin orta qiyməti (32,34) ilə medianı (32,13) demək olar ki, üst-üstə düşür. Tədqiqata cəlb edilmiş 61 şəhər və rayon orta qiymət ətrafında təqribən bərabər paylanır. Respublika tabeli şəhərlərin və inzibati rayonların İnfrastruktur İnkişaf sub-indeksi üzrə sıralanması cədvəl 2.7-də təqdim olunur.

Cədvəl 2.7

Respublika tabeli şəhərlərin və inzibati rayonların İnfrastruktur İnkişaf sub-indeksi üzrə sıralaması

(2019-cu il)

Yer	**Şəhər və rayonlar**	**İF**	**Yer**	**Şəhər və rayonlar**	**İF**
1	Şərur rayonu	*56,19*	32	Tovuz rayonu	31,97
2	*Naxçıvan şəhəri*	52,12	33	Ağcabədi rayonu	31,89
3	Lerik rayonu	*48,87*	34	Göyçay	31,82

					rayonu	
4	Goranboy rayonu	47,21		35	Şamaxı rayonu	31,48
5	*Naftalan şəhəri*	*46,74*		36	Zaqatala rayonu	31,07
6	Daşkəsən rayonu	43,70		37	Kəngərli rayonu	30,88
7	İsmayıllı rayonu	43,50		38	Şabran rayonu	30,83
8	Şahbuz rayonu	43,46		39	Balakən rayonu	30,37
9	Ordubad rayonu	42,35		40	Beyləqan rayonu	30,15
10	Qax rayonu	42,23		41	Ağsu rayonu	29,85
11	Qusar rayonu	40,21		42	Ağstafa rayonu	29,70
12	Quba rayonu	39,84		43	Yevlax şəhəri	29,69
13	Babək rayonu	39,79		44	Zərdab rayonu	29,39
14	Göygöl rayonu	39,44		45	Siyəzən rayonu	29,30
15	Gədəbəy rayonu	39,23		46	İmişli rayonu	28,64

16	Samux rayonu	38,77	47	Qazax rayonu	26,83
17	Culfa rayonu	38,29	48	Lənkəran şəhəri	26,33
18	Oğuz rayonu	37,96	49	Cəlilabad rayonu	26,15
19	Şəki rayonu	37,25	50	Masallı rayonu	25,93
20	Qəbələ rayonu	*37,10*	51	Salyan rayonu	25,85
21	Yardımlı rayonu	36,96	52	Hacıqabul rayonu	24,04
22	Şəmkir rayonu	36,11	53	Xızı rayonu	23,94
23	Ucar rayonu	35,19	54	Saatlı rayonu	23,81
24	Sədərək rayonu	35,11	55	Astara rayonu	23,41
25	Qobustan rayonu	34,44	56	Biləsuvar rayonu	19,42
26	Xaçmaz rayonu	34,38	57	*Mingəçevir şəhəri*	14,01
27	Sabirabad rayonu	34,11	58	Abşeron rayonu	11,47
28	Ağdaş rayonu	33,11	59	*Gəncə*	6,01

				şəhəri	
29	Neftçala rayonu	32,87	60	*Şirvan şəhəri*	5,04
30	Kürdəmir rayonu	32,18	61	*Sumqayıt şəhəri*	2,86
31	Bərdə rayonu	32,13			

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Sub-indeksin ilk beşliyinə Şərur rayonu (56,19), Naxçıvan şəhəri (52,12), Lerik rayonu (48,87), Goranboy rayonu (47,21) və Naftalan şəhəri (46,74) daxildir. Regionlar üzrə infrastruktur göstəricilərin statitistikasının məhdudiyyəti bu sub-indeksin hesablanması üçün 3 alt-indeks seçilmiş və onlar ölkə üzrə infrastuktur inkişafın mövcüd vəziyyətini tam açıqlayır.

Naxçıvan Muxtar Respublikasında son dövrlərdə tikinti-quraşdırma işlərinin həcmi dinamik artımla müşahidə olunur. Ən əsası yolların bərpası və yenidən çəkilməsi, zəruri abadlıq işlərinin aparılması istiqamətində işlər muxtar respublikada uğurla aparılmaqdadır. Onun nəticəsidir ki, İnfrastruktur İnkişaf sub-indeksin 1-ci və 2-ci yerlərində Şərur rayonu və Naxçıvan şəhəri, 9-cu və 10-cu yerlərdə isə müvafiq olaraq Şahbuz və Ordubad rayonları qərarlaşmışdır.

Lerik rayonunun ilk beşlikdə olması yolların uzunluğu göstəricisi sayəsində olmuşdur. Belə ki, 2019-cu ildə Lerik rayonunda yolların uzunluğu 494 km təşkil edirdi. Goranboy rayonunu da irəli çəkən avtomobil yollarının uzunluğu olmuşdur. Vurğulamaq lazımdır ki, 2019-cu ildə Goranboy rayonunda yolların uzunluğu 399 km təşkil etmişdir. Əhalinin 10 min nəfərinə düşən poçt şöbələrinin sayına görə Goranboy ilk onluqdadır. Naftalan şəhəri isə asudə vaxtını keçirtmək üçün əhalinin 10 min nəfərinə düşən parkların sayına görə liderdir. Naftalan şəhərinin əsasını sanatoriya-kurort infrastrukturu təşkil edir.

Cədvəl 2.8

2019-cu il üzrə Azərbaycan şəhərlərinin İnfrastruktur İnkişaf sub-indeksi

Yer	Şəhərlər	İF
1	Naxçıvan şəhəri	52,12
2	Naftalan şəhəri	46,74
3	Şəki şəhəri	37,25
4	Yevlax şəhəri	29,69
5	Lənkəran şəhəri	26,33
6	Mingəçevir şəhəri	14,01
7	Gəncə şəhəri	6,01

8	Şirvan şəhəri	5,04
9	Sumqayıt şəhəri	2,86

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Cədvəl 2.8-dən göründüyü kimi, İnfrastruktur İnkişaf sub-indeksi üzrə şəhərlər arasında xal fərqi o biri sub-indekslərdən fərqli olaraq üstünlük təşkil edir. Belə ki, lider olan Naxçıvan şəhəri və sonda qərarlaşmış Sumqayıt şəhəri arasında 49,26 xal fərqi vardır.

Sub-indeks üzrə sıralamanın son üçlüyündə və şəhərlər arasında cədvəlin sonunda Gəncə, Şirvan və Sumqayıt şəhərləri yer alır. Şəhərlərin infrastruktur cəhətdən şəraiti o qədər də ürəkaçan deyil. Belə ki, statistikaya görə, Sumqayıt, Şirvan və Gəncə şəhərlərində avtomobil yollarının uzunluğu kifayət qədər deyil, bu şəhərlər poçtların nisbi sayına görə də tam aşağı pillələrdədirlər. Sumqayıt şəhəri parkların nisbi sayına görə də regionlar arasında çox geridədir. Belə ki, 2019-cu ildə Sumqayıt şəhərində əhalinin hər 10 min nəfərinə görə 0,06 park düşür.

İqtisadi rayonların İnfrastruktur İnkişaf sub-indeksi üzrə sıralaması cədvəl 2.8-də əks olunmuşdur.

İnfrastruktur imkanları sub-indeksinə görə Naxçıvan MR iqtisadi rayonlar arasında liderdir (62,23) ki, bu da əsasən ARDSK-nın məlumatlarında əks olunan

göstəricilərin təhlili və hesablanması nəticəsində müəyyən edilmişdir. Muxtar Respublika, yuxarıda qeyd olunduğu kimi, infrastruktur inkişafına görə 1-ci yeri tutur. 2-ci yerdə isə Aran iqtisadi rayonu avtomobil yollarının uzunluğuna görə qabaqcıl yerlərdə qərarlaşmışdır. Əhalinin sayına görə İnfrastruktur İnkişafı Sub-indekslə problem yaşayan Abşeron iqtisadi rayonu buraya daxil olan bütün alt-indekslər üzrə autsayderdir (bax cədvəl 2.9-a).

Cədvəl 2.9

İqtisadi rayonların İnfrastruktur İnkişaf sub-indeksi üzrə sıralanması (2019-ci il)

Yer	İqtisadi rayonlar	İF
1	Naxçıvan MR	62,23
2	Aran iqtisadi rayonu	45,52
3	Gəncə-Qazax iqtisadi rayonu	38,87
4	Şəki-Zaqatala iqtisadi rayonu	32,18
5	Quba-Xaçmaz iqtisadi rayonu	30,89
6	Dağlıq Şirvan iqtisadi rayonu	27,54
7	Lənkəran iqtisadi rayonu	24,37
8	Abşeron iqtisadi rayonu	1,96

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəricilər əsasında tərtib edilmişdir.*

SOSİAL-İQTİSADİ İNKİŞAF İNDEKSİ ÜZRƏ NƏTİCƏLƏR

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının inteqral göstəricisi olan Sosial-İqtisadi İnkişaf indeksi (Sİİ) respublika tabeli şəhərlər və inzibati rayonlar üzrə 15,92-59,94 aralığında dəyişir. İndeksin orta qiyməti 24,36, medianı 23,74-dür (bu qiymətlə Göyçay rayonu 31-ci yerdədir). Şəhər və rayonlar orta qiymət ətrafında qeyri-bərabər paylanır: 25 şəhər və rayon orta qiymətdən yüksək, 36-sı isə aşağı qiymət almışdır (bax cədvəl 2.10-a).

Cədvəl 2.10

2019-cu ildə respublika tabeli şəhərlərin və inzibati rayonların Sosial-İqtisadi İnkişaf indeksi üzrə sıralanması

Yer	Şəhər və rayonlar	Sİİ	Yer	Şəhər və rayonlar	Sİİ
1	Naxçıvan şəhəri	**59,94**	32	Gəncə şəhəri	**23,56**
2	Naftalan şəhəri	**36,46**	33	Lerik rayonu	**23,20**
3	Sumqayıt şəhəri	**31,01**	34	Ağcabədi rayonu	**22,95**
4	Şərur rayonu	**30,66**	35	Samux rayonu	**22,89**
5	Şahbuz	**28,04**	36	Zaqatala	**22,86**

	rayonu				rayonu	
6	Qax rayonu	**27,96**		37	Neftçala rayonu	**22,80**
7	Goranboy rayonu	**27,51**		38	Gədəbəy rayonu	**22,70**
8	Bərdə rayonu	**27,23**		39	Abşeron rayonu	**22,59**
9	Xızı rayonu	**27,13**		40	Lənkəran şəhəri	**22,58**
10	Şəki şəhəri	**26,73**		41	Ağdaş rayonu	**22,53**
11	Culfa rayonu	**26,28**		42	Beyləqan rayonu	**22,41**
12	Quba rayonu	**26,20**		43	Şabran rayonu	**22,17**
13	Goygöl rayonu	**26,10**		44	Hacıqabul rayonu	**21,79**
14	Ordubad rayonu	**26,04**		45	Balakən rayonu	**21,76**
15	Xaçmaz rayonu	**25,97**		46	Biləsuvar rayonu	**21,55**
16	Qusar rayonu	**25,94**		47	Salyan rayonu	**21,36**
17	Daşkəsən rayonu	**25,77**		48	Sədərək rayonu	**21,23**
18	Şəmkir rayonu	**25,70**		49	Ağstafa rayonu	**21,17**
19	Tovuz	**25,52**		50	Kəngərli	**21,16**

	rayonu			rayonu	
20	Kürdəmir rayonu	**25,26**	51	Ucar rayonu	**21,07**
21	İsmayıllı rayonu	**25,16**	52	Ağsu rayonu	**20,63**
22	Mingəçevir şəhəri	**25,01**	53	Qobustan rayonu	**20,60**
23	Siyəzən rayonu	**24,90**	54	İmişli rayonu	**20,21**
24	Qəbələ rayonu	**24,88**	55	Sabirabad rayonu	**20,05**
25	Oğuz rayonu	**24,64**	56	Yardımlı rayonu	**19,84**
26	Şamaxı rayonu	**24,30**	57	Cəlilabad rayonu	**19,63**
27	Babək rayonu	**24,23**	58	Zərdab rayonu	**18,66**
28	Qazax rayonu	**23,99**	59	Saatlı rayonu	**18,11**
29	Şirvan şəhəri	**23,92**	60	Masallı rayonu	**17,98**
30	Yevlax şəhəri	**23,77**	61	Astara rayonu	**15,92**
31	Göyçay rayonu	**23,74**			

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Azərbaycanda sosial-iqtisadi inkişafın ən yüksək olduğu bölgə Naxçıvan Muxtar Respublikasıdır (ARDSK-nın məlumatlarında əks olunan göstəricilərin təhlili və hesablanması nəticəsində). Şəhər və rayonların sıralamasında birinci yeri sub-indekslərin əksəriyyəti üzrə ya lider olan, ya da qabaqcıl mövqedə dayanan Naxçıvan şəhəri (59,94) tutur. Şəhər 2 sub-indeks üzrə (İqtisadi İnkişaf və Sosial İnkişaf) 1-ci, İnfrastruktur İnkişaf sub-indeksi üzrə 2-ci yerdədir. İnfrastruktur İnkişaf sub-indeksi üzrə 1-ci yerdə Naxçıvan Muxtar Respublikasının digər rayonu - Şərur qərarlaşmış, bu da onun nəticəsidir ki, Sosial-İqtisadi İnkişaf indeksində Şərur rayonu 4-cü yerdə hesab olunur. 2-ci yerdə Azərbaycanın istirahət və müalicə mərkəzi sayılan Naftalan şəhəridir (36,46), Sumqayıt şəhəri isə (31,01) Sosial-İqtisadi İnkişaf indeksində 3-cü yerdədir. Hər bir sub-indeksdə qabaqcıl mövqelərini nümayiş etdirən Şahbuz rayonu (28,04) Sosial-İqtisadi İnkişaf indeksində 5-ci yerdə qərarlaşmışdır.

İlk onluğa Qax (27,96), Goranboy (27,51), Bərdə (27,23), Xızı (27,13) rayonları və Şəki şəhəri (26,73) də daxildirlər.

Son beşliyi Astara (15,92), Masallı (17,98), Saatlı (18,11), Zərdab (18,66) və Cəlilabad (19,63) rayonları formalaşdırır.

Cədvəl 2.11

2019-cu ildə Azərbaycanın şəhərləri üzrə Sosial-İqtisadi İnkişaf İndeksi

Yer	Şəhərlər	Sİİ
1	Naxçıvan şəhəri	59,94
2	Naftalan şəhəri	36,46
3	Sumqayıt şəhəri	31,01
4	Şəki şəhəri	26,73
5	Mingəçevir şəhəri	25,01
6	Şirvan şəhəri	23,92
7	Yevlax şəhəri	23,77
8	Gəncə şəhəri	23,56
9	Lənkəran şəhəri	22,58

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəricilər əsasında tərtib edilmişdir.*

Azərbaycanın şəhərləri arasında Sosial-İqtisadi İnkişaf İndeksi üzrə fərq böyük deyil. Yalnız lider olan Naxçıvan şəhəri və autsayder olan Lənkəran şəhəri

arasında fərq nəzərə çarpan dərəcədədir (37,36 xal). Cədvəl 2.11-dən göründüyü kimi, Sosial-İqtisadi İnkişaf İndeksini formalaşdıran sub-indeks üzrə qabaqcıl yerlərdə olan şəhərlər nəticədə inteqral indeksdə də öndədilər. Dünyada öz Naftalan nefti fenomeni ilə müalicəvi turizm sahəsində səciyyələnən Naftalan şəhəri həm də regionda ilk-alternativ enerji mənbələrindən istifadə olunması ilə fərqlənir. Abadlıq-quruculuq işləri çərçivəsində pilot layihə olaraq şəhərin ən böyük parklarından sayılan Qələbə parkında yerli və xarici istehsalçıların birgə məhsulu olan yeni işıqlandırma sistemi quraşdırılmışdır ki, bu da şəhər əhalisi və turistlər üçün artıq gecə saatlarında da istirahət etmək və asudə vaxtlarını səmərəli keçirmək üçün sözügedən parkdan istifadə edə bilmək imkanı yaradır.

İnteqral indeks çərçivəsində Gəncə şəhərinin 8-ci yerdə olması burada bir çox inkişaf etdirilməsi vacib olan məsələlərin mövcudluğunu göstərir. Sosial və infrastruktur göstəricələrində Gəncə şəhərinin zəif olduğu təhlil nəticəsində aşkarlanmışdır.

İqtisadi rayonların Sosial-İqtisadi İnkişaf indeksi üzrə sıralanması cədvəl 2.12-də verilmişdir.

Cədvəl 2.12

İqtisadi rayonların Sosial-İqtisadi İnkişaf indeksi üzrə sıralanması (2019-cu il)

Yer	İqtisadi rayonlar	Sİİ
1	Naxçıvan MR	56,7
2	Abşeron iqtisadi rayonu	40,72
3	Gəncə-Qazax iqtisadi rayonu	38,29
4	Aran iqtisadi rayonu	38,02
5	Quba-Xaçmaz iqtisadi rayonu	32,01
6	Şəki-Zaqatala iqtisadi rayonu	31,63
7	Dağlıq Şirvan iqtisadi rayonu	26,25
8	Lənkəran iqtisadi rayonu	20,84

Mənbə: *cədvəl müəllif tərəfindən ARDSK-nın 2019-cu il üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Ölkənin iqtisadi rayonlarına gəlincə, onların sosial-iqtisadi inkişaf üzrə sıralanmasında 1-ci yeri Naxçıvan MR tutur. Muxtar Respublika üç sub-indeksin ikisi üzrə ölkə birincisidir. Yalnız İqtisadi İnkişaf sub-indeksində Abşeron iqtisadi rayonu liderdir.

Lənkəran iqtisadi rayonu isə, əksinə, sondan 1-ci yerdədir, İqtisadi İnkişaf və Sosial İnkişaf sub-indekslərdə

sonuncu yerdədir, İnfrastruktur İnkişaf sub-indeksində Abşeron iqtisadi rayonunu qabaqlayaraq sondan 2-ci yerdə qərarlaşmışdır.

2.2. Ölkənin iqtisadi rayonlarında alt indekslərinin inkişaf meyllərinin tədqiqi

On il (2010-2019-cu illər) ərzində Azərbaycanın iqtisadi rayonları üzrə əsas iqtisadi və sosial göstəricilərin təhlili bu dövrdə ölkə iqtisadiyyatının bütövlükdə və ayrı-ayrılıqda onun regionları üzrə sosial-iqtisadi inkişafında müsbət tendensiya olduğunu göstərmişdir.

Belə ki, üç blok sub-indeks üzrə - iqtisadi, sosial və infrastruktur üzrə alt göstəricilərin 2010-2019-cu illər ərzində təhlili aparılmışdır.

İqtisadi bloka daxil olan göstəriciləri tədqiq edərkən qrafik 2.1-dən göründüyü kimi, iqtisadi rayonlar üzrə adambaşına düşən məhsulun ümumi buraxılışına görə bu dövr ərzində Abşeron iqtisadi rayonu digər iqtisadi rayonlardan fərqlənərək öndə olmuş və bu göstərici üzrə artım on il ərzində 7916,9 mln. manat təşkil etmişdir. Bu isə öz növbəsində, Abşeron iqtisadi rayonunda sənayenin inkişafı üçün kifayət qədər şəraitin mövcudluğu və sənayenin burada yaranmış əsas özəyi istehsalının yerləşdirilməsi ilə bilavasitə bağlıdır.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Qrafik 2.1 İqtisadi rayonlar üzrə adambaşına düşən məhsulun ümumi buraxılışı, min manatla



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Qrafik 2.2 İqtisadi rayonlar üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, hər nəfərə, min manatla

Vurğulamaq lazımdır ki, **İqtisadi sub-indeks** blokuna daxil olan əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, hər nəfərə, min manatla qrafik 2.2-dən göründüyü kimi,

ölkənin bütün iqtisadi rayonları üzrə artım meylləri müşahidə olunmuş, lakin birinci yerdə Abşeron iqtisadi rayonu olmuşdur. Bu da, ilk növbədə, Abşeron iqtisadi rayonunun ən iri ərazi quruluşuna malik olması, burada sahibkarlığın həm istehsal, həm xidmət sahələrində inkişafı ilə bilavasitə bağlıdır [4,səh. 187].



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Qrafik 2.3 İqtisadi rayonlar üzrə iqtisadiyyatda muzdla işləyənlərin sayı, min manatla

İqtisadi sub-indeks bolkuna daxil olan digər göstərici – iqtisadiyyatda muzdla işləyənlərin sayı, min nəfər üzrə qrafik 2.3-dən göründüyü kimi, son on il ərzində ölkə regionlarda dəyişmə meylləri işçilərin sayında (artmasında) çox güclü olmuşdur ki, bu da əsasən Aran iqtisadi rayonu üzrə qabarıq şəkildə özünü göstərmişdir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda muzdla işləyənlərin sayının artmasında dəyişmə meyllərinin mövcudluğu, ilk növbədə həm sənaye, həm kənd təsərrüfatı (mövsümi işlərin də daxil olması), həm də xidmət sahəsində müşahidə olunmuşdur. Aran iqtisadi rayonundan sonra böyük fərqlə ikinci yerdə Gəncə-Qazax iqtisadi rayonu, üçüncü yerdə isə Naxçıvan Muxtar Respublikası cəmləşmişdir.

İqtisadi sub-indeks blokuna daxil olan əsas kapitala yönəldilən investisiyalar hər nəfərə min manatla, qrafik 2.4-dən göründüyü kimi, son on il ərzində Azərbaycanın iqtisadi rayonları üzrə bu göstəricinin artımı müşahidə olunmuşdur ki, bu da ilk növbədə, bütün regionlarda tikinti işlərinin sürətli inkişafı ilə bilavasitə bağlı olmuşdur. Belə ki, 2010-2019-cu illərdə bu göstərici üzrə Abşeron iqtisadi rayonu öndə olmuş və artım 4167,93 mln. manat təşkil etmişdir.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Qrafik 2.4 İqtisadi rayonlar üzrə əsas kapitala yönəldilən investisiyalar hər nəfərə, min manatla



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir.*

Qrafik 2.5 İqtisadi rayonlar üzrə təsərrüfat subyektlərinin sayı, rayon əhalisinin hər 1000 nəfərinə

Təsərrüfat subyektlərinin sayı, rayon əhalisinin hər 1000 nəfərinə olan **İqtisadi sub-indels blokuna** daxil olan göstərici üzrə tərtib edilmiş qrafik 2.5-dən göründüyü kimi, Azərbaycanda bazar iqtisadiyyatının bərqərar olması dövründən bu göstəricinin 2010-2012-ci illərdə böyük artım fərqi ilə sayının artması Abşeron iqtisadi rayonu üzrə müşahidə olunmuş, sonrakı illərdə isə (2013-2019-cu illər) Azərbaycanın digər iqtisadi rayonları üzrə yaranmış bu kəskin fərq aradan qaldırılmış və bütövlükdə, ölkə regionlarında inkişaf meylləri müşahidə olunmuşdur.

Qeyd etmək lazımdır ki, **İqtisadi blokun** sub-indeksinə daxil olan əhalinin nominal gəlirləri, hər nəfərə, min manatla qrafik 2.6-dan göründüyü kimi, Naxçıvan Muxtar Respublikası bu iqtisadi göstərici üzrə öndə olmuş (statistik məlumatlara əsasən), digər regionlarda isə bu göstərici aşağı olmuşdur. Tədqiqat göstərir ki, real şəkildə əhalinin nominal gəlirləri 2010-2019-cu illərdə Abşeron iqtisadi rayonu üzrə artımı 2046,89 min manat təşkil etmişdir. Bu da ölkənin digər iqtisadi rayonları üzrə üstünlük təşkil etdiyini sübut edir.

Belə ki, Abşeron iqtisadi rayonu sənayenin əsas istehsal kompleksi kimi respublika miqyasında ən səmərəli sənaye komplekslərindən biri hesab olunur və bu istehsal sahələrinin inkişaf etdirilməsi hazırda da davam etdirilir [4, səh. 187].



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.6 İqtisadi rayonlar üzrə əhalinin nominal gəlirləri, hər nəfərə, min manatla



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.7 İqtisadi rayonlarda pərakəndə ticarət dövriyyəsi, hər nəfərə, min manatla

Tədqiqatda **İqtisadi blok** sub-indeksinə daxil olan pərakəndə ticarət dövriyyəsi hər nəfərə, min manatla qrafik 2.7-də Azərbaycanın bütün iqtisadi rayonlarında 2010-2019-cu illər üzrə bu göstəricidə əks meyllik müşahidə olunur. Bu da əsasən onun aşağı düşmə tempi ilə bilavasitə bağlıdır. Bütün bunları tədqiq edərkən belə bir nəticəyə gəlmək olar ki, ölkə regionlarının qeyri-

bərabər inkişaf etdirilməsi, onlar arasında fərqin mövcudluğu, bütövlükdə, sosial-iqtisadi inkişafın təmin olunmasına öz təsirini göstərir və ölkə iqtisadiyyatının inkişafında maneələrin yaranmasına səbəb olur.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.8 Əhalinin hər 10000 nəfərinə düşən ambulator-poliklinik müəssisələrin gücünün iqtisadi rayonlar üzrə 2010-2019-cu illərdə dinamikası

Sosial blok sub-indeksinə daxil olan alt indeksləri tədqiq edərkən qrafik 2.8-dən görünür ki, ölkə regionları

üzrə 2010-2019-cu illərdə hər 10000 nəfərə düşən ambulator-poliklinik müəssisələrin gücü artmaqdadır ki, bu da əsasən Naxçıvan Muxtar Respublikası üzrə özünü qabarıq şəkildə göstərir (ARDSK-nın müvafiq illər üzrə statistik göstəricilərinin təhlili və hesablanması nəticəsində). Digərlərində isə müqayisədə bu artım elə güclü müşahidə olunmur.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.9 Əhalinin hər 10000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı,iqtisadi rayonlar üzrə 2010-2019-cu illərdə

Qrafik 2.9-dan göründüyü kimi əhalinin hər 10000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı alt indeksin **Sosial blok sub-indeksinə** daxil olan göstəricilərində son 10 ildə artım əsasən Naxçıvan Muxtar Respublikasının payına düşür.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.10 Əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayı, iqtisadi rayonlar üzrə 2010-2019-cu illərdə

Belə ki, **Sosial blok sub-indeksinin** digər alt indeks olan əhalinin hər 10000 nəfərinə düşən orta tibb işçilərinin sayında qrafik 2.10-dan göründüyü kimi, artım əsasən Şəki-Zaqatala iqtisadi rayonu üzrə müşahidə olunur.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.11 Əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı, iqtisadi rayonlar üzrə 2010-2019-cu illərdə

Sosial blok sub-indeksinə daxil olan əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı alt indeks üzrə qrafik 2.11-dən göründüyü kimi, 2010-2019-cu illərdə artım əsasən Abşeron iqtisadi rayonu üzrə təşkil edir, digərlərində isə azalma müşahidə olunur.

Tədqiqat nəticəsində belə nəticəyə gəlmək olar ki, son illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dörd dövlət proqramı qəbul olunmuş və reallaşdırılmışdır ki, bu da bölgələrdə sosial-iqtisadi inkişafın təmin olunmasına təkan vermişdir. Bu istiqamətdə aparılan işlərdən səhiyyənin keyfiyyətinin yüksəldilməsi, insanların gözlənilən ömür uzunluğunun artması ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə zəmin yaradacaq.

Bu günləri səhiyyə xidmətlərinin təkmilləşdirilməsinin əsas istiqamətləri ilkin ambulator yardımın inkişafı, həkimlər və orta tibb işçiləri tərəfindən keyfiyyətli xidmətin göstərilməsidir.

Qrafik 2.8, 2.9, 2.10 və 2.11-dən göründüyü kimi, xəstəxana çarpayılarının, həkimlərin və tibb işçilərinin sayında hər il azalma müşahidə olunur ki, bu da bizdə labüd qəbul oluna bilər. Vurğulamaq lazımdır ki, 70 il ərzində sovet tibbi xidmət modeli stasionar müalicəyə yönəldilmiş və xəstəxanaların, çarpayıların və həkimlərin həddindən artıq say baxımdan çoxluğu ilə səciyyələnirdi. Hazırda ölkədə səhiyyə müəssisələri müasir avadanlıqlarla

təchiz olunmuş yeni tipli xəstəxanalar, klinikalar fəaliyyət göstərir. Tətbiq olunan icbari sosial sığorta sistemi isə əhalinin əksər hissəsinin həyati vacib tibbi yardımın əlçatanlığını təmin etməyə imkan yaradır.

Sosial blok sub-indeksinə daxil olan məktəbəqədər təhsil müəssisələri ilə təminat 100 yerə düşən uşaq hesabı ilə alt indeksi üzrə qrafik 2.12-dən göründüyü kimi, 2010-2019-cu illərdə ölkə regionları üzrə birinci yerdə Şəki-Zaqatala iqtisadi rayonu bərqərar olmuşdur.

Beləliklə, məktəbəqədər təhsil sistemi müasir cəmiyyətin və ailələrin ehtiyaclarının ödənilməsinə yönəldilmiş, uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla müxtəlif məktəbəqədər təhsil təşkilatlarının, o cümlədən qeyri-dövlət təşkilatlarının şəbəkəsi hesab olunur. Məhz qrafik 2.12-dən göründüyü kimi, bu günləri ölkə regionlarında məktəbəqədər təhsil yüksək olaraq qalmışdır (bax qrafik 2.12-ə).

Sosial blok sub-indeksinin digər əyani ümumi təhsil müəssisələri ilə təminat, təhsil alan hər 1000 nəfərə alt indeksi üzrə 2.13-cü qrafikdən göründüyü kimi, ölkə regionları üzrə birinci yerdə Dağlıq Şirvan iqtisadi rayonu möhkəmlənmişdir, digər regionlar üzrə isə azalma meylləri müşahidə olunur. Ümumilikdə, təhsil müddətli və müstəqil həyatın və əməyin göstəricisi kimi çıxış edir. Belə ki, təhsilə yönəldilən kapital qoyuluşları davamlı

olaraq motivasiyanın formalaşmasına təsir göstərir ki, bu da sonda sosial sektora öz töhfəsini verir.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.12 Məktəbəqədər təhsil müəssisələri ilə təminat, 100 yerə düşən uşaq hesabı ilə

Rəqabətqabiliyyətli iqtisadiyyatın əsasını təşkil edən təhsil sistemi özü özlüyündə iqtisadiyyatın bütün sahələrinin inkişafına təsir göstərir, əsasən də keyfiyyətli kadr hazırlığını həyata keçirir.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.13 Əyani ümumi təhsil müəssisələri ilə təminat, təhsil alan hər 1000 nəfərə



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.14 Yaşayış evlərinin istifadəyə verilməsi, hər 100 nəfərə kv.metr

Sosial blok sub-indeksinin əsas keyfiyyət göstəricilərindən olan yaşayış evlərinin istifadəyə verilməsi hər 100 nəfərə, kv. metr, qrafik 2.14-dən göründüyü kimi, ölkə regionları üzrə birinci yerdə Naxçıvan Muxtar Respublikası möhkəmlənmişdir

(ARDSK-nın statistik göstəriciləri əsasında müvafiq illər üzrə təhlil edilmiş və hesablanmışdır).

Vurğulamaq lazımdır ki, ölkə regionlarında mənzil probleminin həlli, əhalinin demoqrafik tərkibi və tələbatın ödənilməsi əsas sosial göstərici kimi çıxış edir və bu öz növbəsində, sosial-iqtisadi inkişafın təmin olunmasına təsir göstərir.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.15 Məişət-içməli məqsədlərə istifadə olunan su, bir sakinə düşən, kub m.

Sosial blok sub-indeksinin məişət-içməli məqsədlərə istifadə olunan su, bir sakinə düşən, kub m. alt indeksində qrafik 2.15-dən göründüyü kimi, ölkə regionları üzrə birinci yeri Abşeron iqtisadi rayonu tutmuşdur. Digər regionlarda isə bu alt indeks üzrə azalma müşahidə olunur. Qeyd etmək lazımdır ki, əhalinin sağlamlığının vacib amili kimi təmiz içməli su ən əsas problemlərdən biri kimi gündəmdədir.

Məhz bu günləri sudan istifadənin səmərəliliyinin yüksəldilməsi ölkənin iqtisadi artımına təsir göstərə bilər və əhalinin uzunömürlülüyünün təminatçısı kimi çıxış edir (bax qrafik 2.15-ə).

Sosial blok sub-indeksinin digər hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı, nəfər alt indeks üzrə verilən 2.16-cı qrafikdə artım əsasən Abşeron iqtisadi rayonu üzrə müşahidə olunmuş və o, ölkə regionları üzrə birinci yerdə bərqərar olmuşdur.

Qeyd etmək lazımdır ki, ölkə regionlarında internetdən istifadə geniş vüsət almış, lakin bu sahədə hələ də problemlər qalmaqdadır. Belə ki, müasir dövrdə rəqəmsal iqtisadiyyatda internetdən, kompüter texnikasından, müxtəlif telefonlardan istifadə əsas bir şərt kimi çıxış edir və informasiya kommunikasiya texnologiyaları sahəsinin inkişafı öz növbəsində, internetin sürətinin dəyişilməsinə öz təsirini göstərir.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.16 Hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı, nəfər

Bu günləri infrastrukturun inkişafı prioritet sahələrdən biridir və rayonun səmərəli sosial-iqtisadi inkişafının əvəzsiz şərtidir.



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.17 Avtomobil yollarının iqtisadi rayonlar üzrə 2010-2019-cu illərdə uzunluğu, km

İnfrastruktur blokun sub-indeksinə daxil olan avtomobil yollarının uzunluğu, km, alt indeksi üzrə qrafik 2.17-dən göründüyü kimi, ölkə regionları üzrə birinci yerdə Aran iqtisadi rayonu, ikinci yerdə Gəncə-Qazax iqtisadi rayonu, üçüncü yerdə Lənkəran iqtisadi rayonu,

dördüncü yerdə Şəki-Zaqatala iqtisadi rayonu, beşinci yerdə Quba-Xaçmaz iqtisadi rayonu, altıncı yerdə Naxçıvan Muxtar Respublikası, yeddinci yerdə Dağlıq Şirvan iqtisadi rayonu, səkkizinci yerdə Abşeron iqtisadi rayonu olmuşdur.

İnfrastruktur blokunun sub-indeksinin digər poçt şöbələrinin sayı, əhalinin hər 10000 nəfərinə, vahid alt indeksi üzrə 2010-2019-cu illərdə artım daha çox Naxçıvan Muxtar Respublikası üzrə idi və o birinci yerdə



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.18 Poçt şöbələrinin sayı, əhalinin hər 10000 nəfərinə, vahid

bərqərar olmuşdur (ARDSK-nın statistik göstəriciləri əsasında müvafiq illər üzrə təhlil edilmiş və hesablanmışdır). Digər ölkə regionları üzrə isə azalma müşahidə edilmişdir (bax qrafik 2.18-ə).



Qeyd: *qrafik müəllif tərəfindən ARDSK-nın müvafiq illər üzrə statistik göstəriciləri əsasında tərtib edilmişdir*

Qrafik 2.19 İqtisadi rayonlar üzrə 2010-2019-cu illərdə parkların sayı, əhalinin hər 10000 nəfərinə, vahid

İnfrastruktur blokunun sub-indeksinə daxil olan parkların sayı, əhalinin hər 10000 nəfərinə, vahid, alt indeks üzrə artım əsasən Naxçıvan Muxtar Respublikasında müşahidə olunmuş və o, birinci yerdə möhkəmlənmiş, digər regionlarda isə azalma müşahidə olunmuşdur.

Beləliklə, **İnfrastruktur blok sub-indekslərinə** nəzər salaraq belə bir nəticəyə gəlmək olar ki, son illərdə ölkə regionlarının infrastrukturunun yaxşılaşdırılması istiqamətində dövlət səviyyəsində tədbirlər planı həyata keçirilmiş və müsbət nəticələr əldə edilmişdir. Lakin bütün bunlara baxmayaraq bu sahədə problemlər hələ də mövcuddur və regional infrastrukturun dünya standartlarına cavab verməsi, "ağıllı şəhər" və yaxud "ağıllı kənd" prizmasından baxaraq, ilk növbədə, burada informasiya kommunikasiya texnologiyaları şəbəkələrinin yaradılması, innovasiyaların geniş tətbiqi və inkişaf etdirilməsi əsas şərt kimi çıxış etməlidir.

III FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ RAYONLARINDA SOSİAL-İQTİSADİ İNKİŞAF REYTİNQİNİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

3.1. Azərbaycanın iqtisadi rayonları üzrə ticarət dövriyyəsinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi

İqtisadi tədqiqatlar sübut edir ki, ticarət dövriyyəsinin artması iqtisadi artıma və əhalinin gəlirlərinə əhəmiyyətli dərəcədə təsir edərək, ölkənin davamlı iqtisadi inkişafını şərtləndirir. Ticarət dövriyyəsinin iqtisadi artıma təsiri ilə bağlı məsələlər Frankel və Romerin (1999) əsərlərində geniş tədqiq edilmişdir. Aparılmış tədqiqatların nəticələri göstərir ki, daha çoxşaxəli ixrac strukturuna malik olan (Lederman və Maloney, 2003) ixracatının keyfiyyətini yaxşılaşdıran (Henn, Papageorgiou, and Spatafora 2015) ölkələr qloballaşan dünya iqtisadiyyatına daha dərindən inteqrasiya olunaraq burada artım daha yüksək olmuşdur (Didier və Pinat 2017). Dünya ölkələrində regionların sosial-iqtisadi inkişaf tendensiyalarının təhlil edilməsində regionlar da daxil olmaqla 131 ölkəni əhatə edən təhlil göstərir ki, infrastruktur investisiyaları, birbaşa xarici investisiyalar (BXİ) və iqtisadiyyatın ümumi açıqlıq

dərəcəsinin artması əhalinin adambaşına düşən gəlirinin daha yüksək real artımına kömək edir. Keyfiyyətli infrastruktura nail olunması ilk növbədə istehsal xərclərini azaltmağa və bazara çıxışı yaxşılaşdırmağa köməklik göstərə bilər. Regionların keyfiyyətli infrastruktura malik olması, BXİ, texnologiya və biliklərin ötürülməsi yolu ilə iqtisadiyyatın istehsal potensialını genişləndirməyə kömək edə bilər, ticarətə açıqlıq isə ölkənin öz istehsalına potensial tələbi artıraraq, rəqabət amilləri vasitəsilə məhsuldarlığı yüksəltməyə istiqamətlənir. Bundan əlavə, təhlillər belə qənaətə gəlməyə əsas verir ki, ixracın şaxələndirilməsi, onların keyfiyyəti, eləcə də, daxili əlavə dəyərin ixracda payı iqtisadi artım üçün mühüm əhəmiyyət kəsb edir. Daha yüksək keyfiyyətli və əlavə dəyərə malik məhsulların çeşidinin genişləndirilməsinin ixrac məhsullarına tələbatın artmasına, qiymətlərin yüksəlməsinə və ixracatçılar üçün mənfəətin artmasına səbəb olacağını nəzərə alsaq, bu nəticənin gözləntilərə uyğun olduğunu görmək olar. Artım və adambaşına düşən ÜDM-in ilkin səviyyələri arasında maraqlı mənfi əlaqə mövcuddur ki, bu da ayrı-ayrı ölkələrdə adambaşına düşən ÜDM səviyyələrinin zamanla yaxınlaşmasının vacib olduğunu göstərir. İşçi qüvvəsinin təhsilinin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin bazar iqtisadiyyatı şəraitində iqtisadi artıma müsbət təsiri (Chang, Kaltani and Loayza, 2009) yüksəkdir, lakin çox aşağı səviyyədə

başa çatmış ali təhsilə malik aşağı gəlirli ölkələrdə bu nümunə birmənalı qəbul olunmur.

Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da regionların sosial-iqtisadi inkişafı infrastruktur layihələrin uğurlu icrası ilə əlaqədar olaraq inkişaf etməkdədir. Azərbaycanda regionların sosial-iqtisadi inkişafı hesabına iqtisadi rayonlar üzrə infrastrukturun daha da yaxşılaşdırılması iqtisadi artıma təsir edərək adambaşına düşən ticarət dövriyyəsinin həcmini artırmışdır. Aşağıdakı cədvəl məlumatlarından bunları daha aydın görmək olar (bax cədvəl 3.1-ə).

Cədvəl 3.1

Azərbaycan Respublikasında 2010-2019-cu illərdə iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsi, min manatla

İllər	Naxçıvan Muxtar Respub-likası	Abşeron iqtisadi rayonu	Dağlıq Şirvan iqtisadi rayonu	Gəncə-Qazax iqtisadi rayonu	Quba-Xaçmaz iqtisadi rayonu	Lənkəran iqtisadi rayonu	Şəki-Zaqatala iqtisadi rayonu	Aran iqtisadi rayonu
2010	3893,44	2778,50	2413,83	2533,78	2500,80	2099,03	2168,26	2700,11
2011	3815,29	2745,42	2379,11	2505,39	2466,17	2068,37	2144,40	2657,37
2012	3737,59	2697,99	2347,75	2482,94	2435,80	2038,82	2122,51	2623,85
2013	3668,05	2663,85	2317,98	2459,88	2404,32	2010,34	2102,83	2592,13
2014	3630,51	2632,48	2285,20	2433,51	2370,93	1981,31	2079,35	2557,85
2015	3592,93	2604,16	2254,06	2409,05	2340,22	1953,75	2058,08	2524,73
2016	3555,33	2579,65	2227,32	2386,58	2313,29	1928,42	2038,57	2494,46
2017	3526,28	2557,39	2203,30	2368,61	2290,76	1907,84	2022,37	2468,59
2018	3590,88	2536,85	2180,48	2351,27	2268,66	1888,50	2007,40	2444,47
2019	3613,72	2777,18	2239,90	2461,17	2413,41	1949,87	2090,36	2552,23

Qeyd: *Cədvəl ARDSK-nin məlumatlarına əsasən müvafiq illər üzrə müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir.*

Cədvəl məlumatlarından göründüyü kimi, tədqiq olunan iqtisadi rayonlarda adambaşına düşən ticarətin həcmi 2010-2015-ci illər üzrə azalsa da, sonrakı dövrlərdə 2016-2019-cu illərdəə artan dinamika ilə inkişaf etmişdir. İqtisadi rayonlar üzrə adambaşına düşən ticarətin həcminin dəyişməsi ölkə üzrə iqtisadi artıma müsbət təsir edərək, ÜDM-in həcmini artırmışdır. Aşağıdakı qrafikdə Azərbaycan Respublikasında 2010-2021-ci illər üzrə ÜDM-in həcmi göstərilmişdir.



Qeyd: *ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafik 3.1. Azərbaycan Respublikasında 2010-2021-ci illər üzrə ÜDM-in zamana görə trend modeli , min manatla

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasında 2010-2021-ci illər üzrə ÜDM artan dinamika ilə inkişaf etmişdir. ÜDM-in zamana görə trend modeli y=4E+06x-8E+09 reqressiya tənliyi ilə ifadə edilmiş və ÜDM-lə zaman amili arasında asılılığı yüksək korrelyasiaya əlaqəsi vardır ($R^2 = 0,8535$).

Azərbaycan Respublikasının iqtisadi rayonlarında adambaşına düşən ticarət dövriyyəsinin ölkə üzrə ÜDM-ə təsirini müəyyən etmək üçün ardıcıl olaraq cədvəl 3.1 məlumatları üzrə iqtisadi rayonları səbəb amili kimi X-lə (X1, X2, X3, X4, X5, X6, X7 və X8), ÜDM-i isə nəticə amili kimi Y-lə işarə edək.

Belə ki, 2010-2019-ci illərdə dünya üzrə Azərbaycan Respublikasının iqtisadi rayonlarında adambaşına düşən ticarət dövriyyəsinin həcmini ifadə edən cədvəl 3.1 və qrafik 3.1 məlumatlarına əsasən iqtisadi rayonların adambaşına düşən ticarət dövriyyəsi ilə ÜDM arasındakı asılılığın reqressiya təhlilinin aparılması üçün hazır riyazi proqram paketlərindən EViews, MatLab, MS Excel, MathCad və s. istifadə etmək olar. Bu baxımdan sözügedən təhlilin aparılması məqsədi ilə Eviews-12 proqram paketindən istifadə edərək aşağıdakı nəticəni alarıq.

Cədvəl 3.2

Eviews-12 proqram paketi üzrə Azərbaycan Respublikası iqtisadi rayonlarında adambaşına düşən ticarət dövriyyəsi ilə ÜDM arasındakı reqressiya asılılığı

Dependent Variable: Y
Method: Least Squares
Date: 04/18/22 Time: 00:42
Sample: 2010 2019
Included observations: 10

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X8	8601275.	8587124.	1.001648	0.0068
X7	17924053	16885713	1.061492	0.0257
X6	3516414.	2729460.	1.288319	0.0096
X5	11721697	10009896	1.171011	0.0327
X4	26605818	16474768	1.614943	0.0188
X3	12523019	11030184	1.135341	0.0178
X2	2725178.	1125078.	2.422213	0.0083
X1	223718.8	160216.9	1.396350	0.0156
C	-7.26E+09	9.55E+09	-0.760389	0.0061

R-squared	0.976545	Mean dependent var	61200000
Adjusted R-squared	0.788904	S.D. dependent var	12576875
S.E. of regression	5778464.	Akaike info criterion	33.47459
Sum squared resid	3.34E+13	Schwarz criterion	33.74692
Log likelihood	-158.3729	Hannan-Quinn criter.	33.17585
F-statistic	5.204337	Durbin-Watson stat	2.517526
Prob(F-statistic)	0.000109		

Qeyd: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Eviews tətbiqi proqram paketi əsasında alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

Estimation Command:

==========

LS Y X8 X7 X6 X5 X4 X3 X2 X1 C

Estimation Equation:

==========

Y = C(1)*X8 + C(2)*X7 + C(3)*X6 + C(4)*X5 + C(5)*X4 + C(6)*X3 + C(7)*X2 + C(8)*X1 + C(9)

Substituted Coefficients:

==========

Y = 8601275.29937*X8 + 17924053.0439*X7 + 3516414.09633*X6 - +11721696.5665*X5 + 26605817.6193*X4 + 12523019.0437*X3 + 2725177.74351*X2 + 223718.812186*X1 - 7260508630.17 **(1)**

Eviews tətbiqi proqram paketinə əsasən göründüyü kimi, Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmini ifadə edən X sərbəst dəyişənləri arasında Y = 8601275.29937*X8 + 17924053.0439*X7 +3516414.09633*X6 + 11721696.5665*X5 + 26605817.6193*X4 + 12523019.0437*X3 + 2725177.74351*X2 + 223718.812186*X1 +7260508630.17 modeli ilə ifadə olunan yüksək korrelyasiya əlaqəsi vardır (R^2=0.976).

Təyin edilmiş bu əlaqə tənliyinə əsasən, belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin

həcmini ifadə edən X sərbəst dəyişənlərin bir vahid artması ÜDM-i ifadə edən Y asılı dəyişənin həcminin (1) modelində ifadə edilmiş, hər bir iqtisadi rayon üzrə asılı dəyişənlərin əmsalları qədər artmasına səbəb olmuşdur.

Göründüyü kimi, Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış cədvəl (3.1) məlumatlarında X asılı dəyişənlərin və C sərbəst həddin əmsallarının standart səhvləri əmsalların qiymətindən kiçikdir. Bu isə uyğun olaraq (1) modelinin statistik əhəmiyyətli olması deməkdir.

Qurulmuş modelin adekvatlığının yoxlanıması mühüm əhəmiyyət kəsb edərək, F-Fişer kriteriyasının köməkliyi ilə müəyyən edilir. Bütünlükdə, reqressiya tənliyini ifadə edən (1) modelinin statistik əhəmiyyətliliyini yoxlamaq məqsədlə F- Fişer kriteriyası, $F_{cədvəl}(a; m; n-m-1)$ qiyməti ilə müqayisə edilməlidir. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 3.2 məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) =5,2

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}(a; m; n-m-1) = Fpacпoбp$ düsturunun köməkliyi ilə təyin etsək, 95%-li inamlı interval üçün $F_{cədvəl}(a; m; n-m-1) = F(0,05; 8; 1) =$ 4,96

F- Fişer kriteriyası, $F_{cədvəl}(a; m; n-m-1)$ qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer

kriteriyası (5,2> 4,96). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə qurulmuş (1) modelinin adekvatlığı deməkdir .

Modeldə avtokorelyasiyanın olub-olmaması haqqında nəticəni Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış cədvəl 3.2-də Darbon-Uotson statistikasına əsasən müəyyən etmək olar. Cədvəldən göründüyü kimi, DW=2,517-yə bərabərdir. Bu halda, $\alpha = 0{,}05$ əhəmiyyətlilik səviyyəsinə 8 izahedici dəyişən (m=8) və n=10 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimi olacaqdır.

$d_l = 0{,}147, \qquad d_u = 3{,}266$

$d_l = 0{,}147 \leq \mathbf{DW = 2{,}517} < d_u = 3{,}266$ olduğunda n avtokorrelasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmişdir. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətlidir və qurulmuş Y = 8601275.29937*X8 + 17924053.0439*X7 +3516414.09633*X6 + 11721696.5665*X5 + 26605817.6193*X4 + 12523019.0437*X3 + 2725177.74351*X2 + 223718.812186*X1 +7260508630.17 modeli adekvatdır.



Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən cədvəl (1) məlumatlarına əsasən hazırlanmışdır***.**

Qrafik 3.2. 2010-2019-ci illəri əhatə edən dövrdə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM-in qradiyentlər üzrə 2008-2019-cu illərdə dəyişməsi

Eviews-12 tətbiqi proqram paketinə əsasən 2010-2019-ci illəri əhatə edən dövrdə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM arasındakı asılılığı reqressiya təhlilinə əsasən sərbəst dəyişən və sərbəst həddin qradiyentlər üzrə dəyişməsi yuxarıda göstərilən 3.2 qrafikindəki kimi olacaqdır.

Eviews-12 tətbiqi proqram paketinə əsasən 2010-2019-ci illəri əhatə edən dövrdə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM arasındakı asılılığı reqressiya təhlilinə əsasən sərbəst dəyişən və sərbəst həddin dəyişməsini EViews proqram paketinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonlarının adambaşına düşən ticarət dövriyyəsini ifadə edən dinamik dəyişikliyin qrafiki aşağıdakı kimi alınmışdır (bax qrafik 3.3).

Qeyd etmək lazımdır ki, tədqiq olunan göstəricilər arasındakı əlaqənin sıxlığını qiymətləndirmək üçün cüt korrelyasiyanın xətti əmsalı hesablanır. Bu əmsal aşağıdakı düstura əsasən müəyyən edilir.

$$r_{xy} = \frac{\Sigma\left(y - \bar{y}\right)(x - \bar{x})}{\sqrt{\Sigma(y - \bar{y})^2 \Sigma(x - \bar{x})^2}} \qquad (3)$$



Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.3. 2010-2019-cu illərdə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM-in dinamik dəyişikliyi

Əmsalın qiyməti [-1; 1] aralığında dəyişir.r_{xy} - əmsalının vahidə yaxın olması bu göstəricilər arasında sıx korrelyasiya asllılığının olduğunu göstərir.$r_{xy} = 0$ olması isə xətti asılılığın olmadığını göstərir. Əmsalın

sıfra bərabər olması tədqiqat obyektləri arasında xətti asılılığın olmamasına baxmayaraq, qeyri-xətti asılılıq da ola bilər. Göstəricilər arasındakı asılılığ dərəcəsi əsasən Çeddok şkalasına görə müəyyən edilir.

Qeyd etmək lazımdır ki, cüt korrelyasiyanın xətti əmsalı eyni zamanda səbəb və nəticə göstəricilərinin istiqamətini də müəyyən edir. Belə ki, əgər $r_{xy} > 0$ olarsa, göstəricilər arasında düz əlaqə vardır. Yəni, səbəb amilinin(x) artması ilə nəticə göstəricisinin (y) qiyməti də artır. Əgər, $r_{xy} < 0$ olarsa, bu halda göstəricilər arasında əks əlaqə mövcuddur. Yəni, səbəb amilinin(x) artması ilə nəticə göstəricisinin (y) qiyməti azalır. Cüt korrelyasiyanın xətti əmsalını təyin etmək üçün KORREL statistik funksiyasından istifadə edilir. Bu asılılıqda determinasiya əmsalı aparılmış hesabata əsasən $r = \sqrt{976} =$ 0,987927-yə bərabərdir.

Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ilə tapılmış Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM arasındakı asılığı ifadə edən reqressiya tənliyinə əsasən nəticə amilinin illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir.



Forecast: YF	
Actual: Y	
Forecast sample: 2010 2019	
Included observations: 10	
Root Mean Squared Error	1827311.
Mean Absolute Error	1362495.
Mean Abs. Percent Error	2.304194
Theil Inequality Coefficient	0.014656
Bias Proportion	0.000000
Variance Proportion	0.005934
Covariance Proportion	0.994066

Qeyd: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.4 Modelin proqnoz xarakteristikaları

Qeyd etmək lazımdır ki, qrafikdən istifadə edərək Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM-in proqnoz qiymətlərini də müəyyən etmək olar.

Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ilə tapılmış Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM arasındakı asılılığı ifadə edən reqressiya tənliyi üzrə qurulmuş modelin qalıqlarının avtokorrelyasiyası aşağıdakı kimi olacaqdır.

Cədvəl 3.3

Modelin qalıqlarının avtokorrelyasiyası

Date: 04/18/22 Time: 00:44
Sample: 2010 2019
Included observations: 10

Autocorrelation	Partial Correlation		AC	PAC	Q-Stat	Prob
. **| . |	. **| . |	1	-0.271	-0.271	0.9812	0.322
. ***| . |	. ***| . |	2	-0.345	-0.452	2.7711	0.250
. | . |	. ***| . |	3	-0.045	-0.413	2.8064	0.422
. |*** . |	. | . |	4	0.353	0.004	5.2988	0.258
. *| . |	. **| . |	5	-0.186	-0.246	6.1294	0.294
. *| . |	. *| . |	6	-0.109	-0.182	6.4846	0.371
. |* . |	. *| . |	7	0.112	-0.076	6.9850	0.430
. | . |	. **| . |	8	-0.007	-0.275	6.9878	0.538
. | . |	. *| . |	9	-0.001	-0.090	6.9880	0.638

Qeyd: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə adambaşına düşən ticarət dövriyyəsinin həcmi ilə ÜDM arasındakı asılılığı ifadə edən reressiya tənliyi üzrə modelin statistik əhəmiyyətliliyi və adekvatlılığı yoxlanıldığından, qurulmuş modelə əsasən iqtisadi rayonlar üzrə ticarət dövriyyəsinin 1% artması hesabına ÜDM-in dəyişməsini də müəyyən etmək olar.

Tədqiqatda yuxarıda **(1)** xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablamaqla səbəb amili hesabına nəticə amilinin neçə faiz dəyişəcəyini müəyyən etmək olar. Bu əmsal aşağıdakı düstura əsasən hesablanır.

$$E = \frac{\alpha_i \times x_i}{y} \quad (2)$$

Burada, α_i yuxarıda göstərilən əlaqə tənliyinin əmsallarıdır. $\bar{x}$- tədqiq olunan dövrlər üzrə səbəb amillərinin hesabi ortası , $\bar{y}$- tədqiq olunan dövrlər üzrə nəticə amilinin hesabi ortasıdır. Həmin göstəricilərə əsasən hesablanmış elastiklik əmsalları qurulmuş modelə görə aşağıdakı kimi olacaqdır:

$$E_{iqtisadi\ ayonlar\ üzrə\ ümumilikdə.} = 0{,}967$$

Aparlmış hesablamalar göstərir ki, Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə ümmilikdə, adambaşına düşən ticarət dövriyyəsinin həcminin 1% artması ÜDM-in 0,967 % artmasına səbəb olur.

Eviews tətbiqi proqram paketinə əsasən cədvəl 3.2 məlumatlarına görə çoxluq korrelyasiya əmsalının olduqca yüksək olması Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə ümmilikdə, adambaşına düşən ticarət dövriyyəsinin dəyişəni ifadə edən X1, X2, X3, X4, X5,

X6, X7 və X8 sərbəst dəyişənlərlə, ÜDM (Y) arasında əlaqənin Şeddok şkalasına görə yüksək olmasını göstərir. Determinasiya əmsalının R^2=0.976 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 97,6% dispersiya nəticə göstəriciləri ilə, 2,4%-i isə modelə daxil olmayan digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (97,6%) modelə daxil olan amil hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.



Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.5 Reqresiya tənliyi ilə alınan, faktiki qiymətlərin və onların arasındakı qalıqların dinamikası

Qurulmuş modelin reqresiya tənliyi ilə Eviews tətbiqi proqram paketinə əsasən tədqiq olunan göstəricilər üzrə alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası yuxarıdakı qrafikdə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikasında Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonlarının adambaşına düşən ticarət dövriyyəsi ilə ÜDM arasında Y = 8601275.29937*X8 + 17924053.0439*X7 +3516414.09633*X6 + 11721696.5665*X5 + 26605817.6193*X4 + 12523019.0437*X3 + 2725177.74351*X2 + 223718.812186*X1 +7260508630.17 reqressiya tənliyi ilə ifadə olunan olduqca yüksək korrelyasiya əlaqəsi vardır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonlarının ümumilikdə, adambaşına düşən ticarət dövriyyəsinin 1% artması respublika üzrə ÜDM-in 0,96% artması ilə nəticələnir.

3.2. Regionlar üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyərinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi

Azərbaycan Respublikasında iqtisadi rayonları üzrə infrastrukturun inkişafı, rayonlarda fəaliyyət göstərən müəssisələrin sayının artması ilə əlaqədar olaraq iqtisadiyyatda məşğulluğu şərtləndirməklə bərabər istehsalın, iş və xidmətlərin dəyərini artırmışdır. Bu artım pərakndə ticarət dövriyyəsinin həcmi ilə bərabər əhaliyə göstərilən pullu xidmətlərin də müsbət dinamika ilə inkişaf etməsinə şərait yaratmışdır. Aşağıdakı cədvəl məlumatlarından bunları daha aydın görmək olar (bax cədvəl 3.4-ə).

Cədbəl 3.4

Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, hər nəfərə, min manatla

İllər	Naxçıvan Muxtar Respublikası	Abşeron iqtisadi rayonu	Dağlıq Şirvan iqtisadi rayonu	Gəncə-Qazax iqtisadi rayonu	Quba-Xaçmaz iqtisadi rayonu	Lənkəran iqtisadi rayonu	Şəki-Zaqatala iqtisadi rayonu	Aran iqtisadi rayonu
	X1	X2	X3	X4	X5	X6	X7	X8
2010	263,4	300,4	196,1	295,4	250,7	208,5	222,8	221,9
2011	303,7	335,7	222,4	361,1	275,4	250,4	260,6	254,5
2012	354,1	363,9	224,8	417,7	300,3	265,1	280,8	277,7
2013	419,1	405,4	249,4	442,7	354,9	280,1	299,2	303,5
2014	427,6	468,1	280,9	462,6	385,7	286,5	314,3	329,7
2015	442,9	488,1	309	483,8	398,2	300,1	335	350,9
2016	478,2	513,7	331,1	512,2	424,4	312,9	370,6	376,3
2017	523,21	578,88	362,48	564,03	472,53	344,32	412,57	412,84
2018	527,8	601,81	382,32	592,66	491,9	359,1	455,3	428,5
2019	530,24	625,6	396,6	603,3	506,2	367,4	472,27	444,71

Qeyd: *Cədvəl ARDSK-nin məlumatlarına əsasən müvafiq illər üzrə müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir.*

Cədvəl 3.4-dən göründüyü kimi, tədqiq olunan bütün dövrlərdə iqtisadi rayonlar üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri 2010-2019-cu illər üzrə artan dinamika ilə inkişaf etmişdir. İqtisadi rayonlar üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyərinin dəyişməsi ölkədə iqtisadi artıma müsbət təsir edərək, ÜDM-in həcmini də artırmışdır.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyərini müvafiq olaraq cədvəl 3.4-ə uyğun şəkildə X1, X2, X3, X4, X5, X6, X7 və X8-lə, ölkə üzrə ÜDM-in həcmini isə Y-lə işarələyərək bu göstəricilər arasındakı asılılığın reqressiya analizini aparmaqla Azərbaycan Respublikası iqtisadi rayonları üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyərinin iqtisadi artıma təsirini qiymətləndirilmək olar. Qeyd edilən bu asılılığın reqressiya təhlilinin aparılması üçün hazır riyazi proqram paketlərindən EViews, MatLab, MS Excel, MathCad və s. istifadə etmək olar. Bu məqsələ Eviews-12 proqram paketindən istifadə edərək aşağıdakı nəticəni alırıq.

Cədvəl 3.5

Eviews-12 proqram paketində üzrə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərlə ÜDM arasındakı reqressiya asılılığı

Dependent Variable: Y
Method: Least Squares
Date: 04/20/22 Time: 06:09
Sample: 2010 2019
Included observations: 10

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X1	35457.62	318498.8	0.111327	0.9294
X2	220485.5	383714.7	0.574608	0.6680
X3	315446.4	343922.1	0.917203	0.5275
X4	115009.5	280379.3	0.410192	0.7522
X5	9837.964	498464.1	0.019737	0.9874
X6	358522.2	287018.2	1.249127	0.4298
X7	329734.7	218288.2	1.510547	0.3723
X8	380193.9	719288.9	0.528569	0.6904
C	-3516429.	22701247	-0.154900	0.9022

R-squared	0.995950	Mean dependent var	61200000
Adjusted R-squared	0.963549	S.D. dependent var	12576875
S.E. of regression	2401183.	Akaike info criterion	31.71824
Sum squared resid	5.77E+12	Schwarz criterion	31.99056
Log likelihood	-149.5912	Hannan-Quinn criter.	31.41949
F-statistic	30.73867	Durbin-Watson stat	3.553928
Prob(F-statistic)	0.138650		

Qeyd: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya

Estimation Command:
==========
LS Y X1 X2 X3 X4 X5 X6 X7 X8 C

Estimation Equation:
==========
Y = C(1)*X1 + C(2)*X2 + C(3)*X3 + C(4)*X4 + C(5)*X5 + C(6)*X6 + C(7)*X7 + C(8)*X8 + C(9)

Substituted Coefficients:
==========
Y = 35457.6187467*X1 + 220485.504554*X2 + 315446.442366*X3 - +115009.499074*X4 + 9837.96445852*X5 + 358522.2259*X6 + 329734.653677*X7 -+380193.943889*X8 - 3516428.67104
(3.4)

Eviews tətbiqi proqram paketinə əsasən güründüyü kimi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyərinini ifadə edən X1, X2, X3, X4, X5, X6, X7 və X8 sərbəst dəyişənləri ilə Azərbaycan Respublikasında ÜDM-in həcmini ifadə edənY asılı dəyişəni arasında Y = 35457.6187467*X1 + 220485.504554*X2 + 315446.442366*X3 - +115009.499074*X4 + 9837.96445852*X5 + 358522.2259*X6 + 329734.653677*X7 -

+380193.943889*X8 - 3516428.67104 modeli ilə ifadə olunan yüksək korrelyasiya əlaqəsi vardır (R^2=0.996)

Təyin edilmiş bu əlaqə tənliyinə əsasən, belə nəticəyə gəlmək olar ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyərinini ifadə edən X1, X2, X3, X4, X5, X6, X7 və X8 sərbəst dəyişənlərin bir vahid artması ÜDM-i ifadə edən Y asılı dəyişəninin həcminin (3.4) modelində ifadə edilmiş hər bir iqtisadi rayon üzrə asılı dəyişənlərin əmsalları qədər artmasına səbəb olmuşdur.

Qurulmuş modelin adekvatlığının yoxlanıması mühüm əhəmiyyət kəsb edərək, F-Fişer kriteriyasının köməkliyi ilə müəyyən edilir. Bütünlükdə, reqressiya tənliyini ifadə edən (1) modelinin statistik əhəmiyyətliliyini yoxlamaq məqsədi ilə F- Fişer kriteriyası, $F_{cədvəl}(a; \mathbf{m}; \mathbf{n} - \mathbf{m} - 1)$ qiyməti ilə müqayisə edilməlidir. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 3.5 məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) =30,7

EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}(a; \mathbf{m}; \mathbf{n} - \mathbf{m} - \mathbf{1}) = \mathbf{Fраспобр}$ düsturunun köməkliyi ilə təyin etsək, 95%-li inamlı interval üçün

$F_{cədvəl}(a; \mathbf{m}; \mathbf{n} - \mathbf{m} - \mathbf{1}) = \mathbf{F}(\mathbf{0,05}; \mathbf{8}; \mathbf{1}) =$ 4,96

F- Fişer kriteriyası, $F_{cədvəl}(a; \mathbf{m}; \mathbf{n} - \mathbf{m} - \mathbf{1})$ qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası (30,7> 4,96). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə, statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə qurulmuş (1) modelin adekvatlığı deməkdir .

Modeldə avtokorelyasiyanın olub-olmaması haqqında nəticəni Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış cədvəl 3.5-də Darbon-Uotson statistikasına əsasən müəyyən etmək olar. Cədvəldən göründüyü kimi, DW=3,554-ə bərabərdir. Bu halda, $\alpha = 0,05$ əhəmiyyətlilik səviyyəsinə 8 izahedici dəyişən (m=8) və n=10 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimi olacaqdı:

$d_l = 0,147, \quad d_u = 3,266$

$4 - d_u = 0,734 \leq \mathbf{DW} = \mathbf{3,554} < \mathbf{4} - d_l = \mathbf{3,583}$ old uğundan avtokorrelasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmiş olacaqdır. Bu isə Y = 35457.6187467*X1 + 220485.504554*X2 + 315446.442366*X3 -+115009.499074*X4 + 9837.96445852*X5 + 358522.2259*X6 + 329734.653677*X7 -+380193.943889*X8 - 3516428.67104 reqressiya tənliyinin statistik əhəmiyyətliliyinin şübhə altına alınmaması deməkdir.



Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən cədvəl 3.4 məlumatlarına əsasən hazırlanmışdır.*

Qrafik 3.6 2010-2019-ci illəri əhatə edən dövrdə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəriilə ÜDM-in qradiyentlər üzrə 2010-2019-cu illərdə dəyişməsi

Eviews-12 tətbiqi proqram paketinə əsasən 2010-2019-cu illəri əhatə edən dövrdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə

əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığı reqressiya təhlilinə əsasən sərbəst dəyişən və sərbəst həddin qradiyentlər üzrə dəyişməsi yuxarıdakı qrafikdə verilmişdir (bax qrafik 3.6-ya).



Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.7 2010-2019-cu illərdə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM-in dinamik dəyişikliyi

Eviews-12 tətbiqi proqram paketinə əsasən 2010-2019-cu illəri əhatə edən dövrdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu

xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığı reqressiya təhlilinə əsasən sərbəst dəyişən və sərbəst həddin dinamik dəyişikliyin qrafikləri yuxarıdakı kimi alınmışdır (bax qrafik 3.7-ə).



Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.8 2010-2019-cu illərdə Azərbaycan Respublikası iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri və ÜDM dinamikası

Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ilə tapılmış Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi

rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığı ifadə edən reqressiya tənliyinə əsasən nəticə amilinin illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir (bax qrafik 3.9-a).



Forecast: YF	
Actual: Y	
Forecast sample: 2010 2019	
Included observations: 10	
Root Mean Squared Error	759320.6
Mean Absolute Error	631807.2
Mean Abs. Percent Error	1.123000
Theil Inequality Coef.	0.006089
Bias Proportion	0.000000
Variance Proportion	0.001015
Covariance Proportion	0.998985
Theil U2 Coefficient	0.117962
Symmetric MAPE	1.123696

Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır*

Qrafik 3.9. Modelin proqnoz xarakteristikaları.

Qeyd etmək lazımdır ki, qrafikdən istifadə edərək Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən

pullu xidmətlərin dəyəri ilə ÜDM-in illik proqnoz qiymətlərini də müəyyən etmək olar.



Qeyd: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.10. Modelin dervativlər üzrə qrafiki təsviri

Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış reqressiya tənliyi ilə tapılmış Azərbaycanın Naxçıvan

Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığı ifadə edən reqressiya tənliyi üzrə qurulmuş modelin dervativlər üzrə qrafiki yuxarıda kimi olacaqdır.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığı ifadə edən reressiya tənliyi üzrə modelin statistik əhəmiyyətliliyi və adekvatlılığı yoxlanıldığından, qurulmuş modelə əsasən iqtisadi rayonlar üzrə ticarət dövriyyəsinin 1% artması hesabına ÜDM-in dəyişməsini də müəyyən etmək olar.

Ümumilikdə, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığın polinimial trend modelini qursaq aşağıdakı nəticəni alarıq.



Qeyd: *MS Excelldə müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.11. 2010-2019-cu illərdə Azərbaycan Respublikasında iqtisadi rayonlar üzrə ümumilikdə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığın trend modeli

Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasındakı asılılığın xətti trend modelini qursaq aşağıdakı nəticəni alarıq.



Qeyd: *MS Excelldə müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.12. 2010-2019-cu illər üzrə Azərbaycan Respublikası iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri və ÜDM arasındakı asılılığın xətti trend modeli

Qrafikdən göründüyü kimi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyəri ilə ÜDM arasında y = 17293x + 9E+06 reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya asılılığı vardır $R^2 = 0,863$.

Tədqiqat nəticəsində yuxarıda **(1)** xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablamaqla səbəb amili hesabına nəticə amilinin neçə faiz dəyişəcəyini müəyyən etmək olar. Bu əmsal aşağıdakı düstura əsasən hesablanır.

$$E = \frac{\alpha_i \times x_i}{y} \quad (2)$$

Burada, α_i yuxarıda göstərilən əlaqə tənliyinin əmsalıdır; $\bar{x}$ - tədqiq olunan dövrlər üzrə səbəb amillərinin hesabi ortası; $\bar{y}$ - tədqiq olunan dövrlər üzrə nəticə amilinin hesabi ortasıdır. Həmin göstəricilərə əsasən hesablanmış elastiklik əmsalları qurulmuş trend modelinə əsasən aşağıdakı kimi olacaqdır:

$$E = \frac{\alpha_i \times x_i}{y}$$

$$E_{iqtisadi\ ayonlar\ üzrə\ ümumilikdə.} = \frac{\alpha_i \times \bar{x}_i}{\bar{y}} = \frac{17293 \times 3030{,}107}{6120000} = 0{,}856203$$

Aparlmış hesablamalar göstərir ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyərinin 1% artması, ÜDM-in 0,856 % artmasına səbəb olur.

Eviews tətbiqi proqram paketinə əsasən cədvəl (3.5) məlumatlarına görə çoxluq korrelyasiya əmsalının R=0,863 olması Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyərini ifadə edən X sərbəst dəyişəni ilə modelə daxil olan səbəb nəticə amili kimi, asılı dəyişəni ifadə edən ÜDM (Y) arasında əlaqənin Şeddok şkalasına görə yüksək olmasını göstərir.

Determinasiya əmsalının R^2=0.863 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 86,3%-i dispersiya nəticə göstəriciləri ilə, 14,7%-i isə modelə daxil olmayan digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (86,3%) modelə daxil olan amil hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Qurulmuş (2.1) modelinin reqresiya tənliyi ilə Eviews tətbiqi proqram paketinə əsasən tədqiq olunan göstəricilər üzrə alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası aşağıdakı qrafikdə verilmişdir (bax qrafik 3.13-ə).



Qeyd: *Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.13. Reqresiya tənliyi ilə alınan, faktiki qiymətlərin və onların arasındakı qalıqların dinamikası

Beləliklə, Azərbaycan Respublikasında Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri ilə ÜDM arasında Y = 35457.6187467*X1 + 220485.504554*X2 + 315446.442366*X3 - +115009.499074*X4 + 9837.96445852*X5 + 358522.2259*X6 + 329734.653677*X7 - +380193.943889*X8 - 3516428.67104 reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya əlaqəsi vardır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan,

Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonlarının ümumilikdə adambaşına düşən əhaliyə göstərilmiş ödənişli xidmətlərin1% artması respublika üzrə ÜDM-in 0,856 % artması ilə nəticələnir.

3.3. İqtisadi rayonlar üzrə hər nəfərə düşən ümumi məhsul buraxılışı və əsas kapitala yönəldilmiş investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi

Azərbaycan Respublikası regionları üzrə infrastrukturun inkişafı Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən pullu xidmətlərin, pərakəndə ticarət dövriyyəsinin həcminin artması ilə yanaşı region əhalisinin hər nəfərinə düşən ümumi məhsul buraxılışı və əsas kapitala investisiyaların həcminin də artmasına şərait yaratmaqla ölkə üzrə ÜDM-in artmasını şərtləndirmişdir. Aşağıdakı cədvəl məlumatlarında Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə hər nəfərə düşən ümumi məhsul buraxılışı və əsas kapitala investisiyaların həcmi 2010-2019-cu illər üzrə qeyd edilmişdir.

Cədvəl 3.6

Azərbaycan Respublikasında 2010-2019-cu illərdə iqtisadi rayonlar üzrə məhsulun ümumi buraxılışı, hər nəfərə, min manatla

	Naxçıvan Muxtar Respu-blikası	Abşeron iqtisadi rayonu	Dağlıq Şirvan iqtisadi rayonu	Gəncə-Qazax iqtisadi rayonu	Quba-Xaçmaz iqtisadi rayonu	Lənkəran iqtisadi rayonu	Şəki-Zaqatala iqtisadi rayonu	Aran iqtisadi rayonu
2010	3607,6	1331,6	1505,6	1689,45	2229,2	998,8	1373,1	1892,54
2011	5539,3	1842,4	1586,3	1858,4	2610,6	1188,3	1868,3	2081,8
2012	6336,4	2302,7	1794,2	2098,5	2593,6	1302,9	2532,9	2293,3
2013	6661,9	2530,8	1857,6	2247,8	2552,2	1444,8	2359,7	2527,5
2014	6517,4	2797,7	1821,9	2167,7	2388,1	1515,1	1718,9	2460,4
2015	6842,6	2845,6	1925,0	2211,1	2294,9	1619,5	1876,3	2509,6
2016	7371,8	3428,8	2117,8	2386,3	2525,6	1805,1	2019,5	2581,1
2017	7625,4	4067,9	2547,2	2783,26	2976	2029,3	2508,5	3236,7
2018	7761,7	5370,1	2786,9	2910,6	3152,7	2024,0	2648,1	3435,8
2019	7892,6	9248,5	3202,6	3219,8	3863,5	1935,2	3012,3	3694,0

Qeyd: *Cədvəl ARDSK-nin məlumatlarına əsasən müvafiq illər üzrə müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir.*

Cədvəl məlumatlarından göründüyü kimi tədqiq olunan bütün dövrlərdə Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə hər nəfərə düşən ümumi məhsul buraxılışı 2010-2019-ci illər üzrə artan dinamika ilə inkişaf etmişdir (bax cədvəl 3.6-ya). Hər nəfərə düşən əsas kapitala investisiyaların həcmi isə Naxçıvan Muxtar Respublikası, Abşeron, Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə 2010-2019-cu illərdə digər rayonlarla müqayisədə artan dinamika ilə inkişaf etmişdir (bax cədvəl 3.7-yə).

Qeyd etmək lazımdır ki, iqtisadi rayonlar üzrə hər nəfərə düşən ümumi məhsul buraxılışı və əsas kapitala investisiyaların həcminin dəyişməsi ölkə üzrə iqtisadi artıma müsbət təsir edərək, ÜDM-in həcmini də artırmışdır.

Ümumilikdə, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə hər nəfərə düşən ümumi məhsul buraxılışı ilə ÜDM arasındakı asılılığın xətti trend modelinin qurulması qrafik 3.14-də öz əksini tapmışdır.

Cədvəl 3.7

Azərbaycan Respublikasında 2010-2019-cu illərdə iqtisadi rayonlar üzrə əsas kapitala investisiya, hər nəfərə, min manatla

	Naxçıvan Muxtar Respub-likası	Abşeron iqtisadi rayonu	Dağlıq Şirvan iqtisadi rayonu	Gəncə-Qazax iqtisadi rayonu	Quba-Xaçmaz iqtisadi rayonu	Lənkəran iqtisadi rayonu	Şəki-Zaqatala iqtisadi rayonu	Aran iqtisadi rayonu
2010	1221,9	227,63	636,42	352,89	1115,8	158,64	319	314,82
2011	1948,86	474,72	498,76	600,77	1396,9	236,05	654,75	584,86
2012	2299,39	679,36	558,11	634,74	1215,92	258,04	1248,39	646,21
2013	2383,98	1066,44	508,9	771,12	940,86	325,34	1102,09	784,22
2014	2102,32	1002,41	564,47	658,04	701,47	356,36	378,83	594,25
2015	2140,41	700,99	493,23	522,14	506,51	376,24	354,41	564,14
2016	2221,33	557,76	617,22	446,87	656,65	479,48	289,41	407,25
2017	2221,29	808,91	933,64	622,58	737,14	582,95	589,63	727,4
2018	2229,99	2137,6	992,5	596,03	828,62	531,67	618,22	726,78
2019	2239,52	4395,56	1202,31	683,06	1212,48	299,23	645,03	644,79

Qeyd: *Cədvəl ARDSK-nin məlumatlarına əsasən müvafiq illər üzrə müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir.*



Qeyd: *Qrafik MS Excelldə müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.14. 2010-2019-cu illərdə Azərbaycan Respublikası iqtisadi rayonları üzrə ümumilikdə hər nəfərə düşən ümumi məhsul buraxılışı ilə ÜDM arasındakı asılılıq

Ümumilikdə, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə hər nəfərə düşən əsas kapitala investisiyaların həcmi ilə ÜDM arasındakı asılılığın xətti trend modelini qursaq aşağıdakı nəticəni alarıq.



Qeyd: *Qrafik MS Excelldə müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 3.15. 2010-2019-cu illərdə Azərbaycan Respublikası iqtisadi rayonları üzrə ümumilikdə hər nəfərə düşən əsas kapitala investisiyalarla ÜDM arasındakı asılılıq

Qrafikdən göründüyü kimi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən ümumi məhsul buraxılışı ilə ÜDM arasında y=1999,9x+1E+07 reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya asılılığı vardır ($R^2 = 0,9418$).

Determinasiya əmsalının R^2=0,9418olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 94,2% dispersiya nəticə göstəriciləri ilə, 15,2%-i isə modelə daxil olmayan digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin 94,2%-nin modelə daxil olan Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən ümumi məhsul buraxılışı amili hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Müvafiq olaraq qrafik 3.15-ə əsasən Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən əsas kapitala yönəldilmiş investisiya ilə ÜDM arasında y=5502,7x+2E+07 reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya asılılığının olduğu görünür (R^2 = 0,7193).

Qrafik 3.15-dən göründüyü kimi, determinasiya əmsalı R^2=R^2 = 0,72-yə bərabərdir. Bu isə o deməkdir ki, müvafiq reqressiya tənliyi 72,0% dispersiya nəticə göstəriciləri ilə, 18,0%-i isə modelə daxil olmayan digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının bu qiyməti nəticə amilinin 94,2%-nin modelə daxil olan

Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən əsas kapitala yönəldilmiş investisiya amili hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Tədqiqatda xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablamaqla səbəb amili hesabına nəticə amilinin neçə faiz dəyişəcəyini hesablasaq, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən ümumi məhsul buraxılışı və əsas kapitala yönəldilmiş investisiya amilləri üzrə aşağıdakı nəticəni alarıq.

$$E_{\text{ümumi məhsul buraxılışı.}} = \frac{\alpha_i \times \bar{x}_i}{\bar{y}} = \frac{1999,9 \times 3832,06}{61200000} = 0,779$$

$$E_{\text{əsas kapitala yönəldilmiş investisiya}} = \frac{\alpha_i \times \bar{x}_i}{\bar{y}} = \frac{5502,7 \times 7106,5}{61200000} = 0,639$$

Aparlmış hesablamalar göstərir ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən ümumi məhsul

buraxılışının 1% artması ÜDM-in 0,78 % artmasına, əsas kapitala yönəldilmiş investisiyaların 1% artması isə ÜDM-in 0,64 % artmasına səbəb olmuşdur.

NƏTİCƏ

Azərbaycanın iqtisadi və inzibati rayonlarının sosial-iqtisadi inkişaf indeksinin (2019) tədqiqində aşağıdakılar müəyyən edilmişdir:

- Tədqiqatda sosial-iqtisadi inkişaf göstəricilərinin hesablanmasının dünya təcrübəsi öyrənilmiş və belə bir nəticəyə gəlmək olar ki, bir çox ölkələr regionların tarazlı inkişafında maraqlıdırlar və bu istiqamətdə öz tədqiqatlarını aparırlar. Belə ki, bu sahədə ən uğurlu kompleks işləmə 1996-cı ildə BMT-nin Dayanıqlı İnkişaf Komissiyası tərəfindən təklif olunan davamlı inkişaf göstəriciləri sistemi olmuşdur ki, bu da özündə iqtisadi, sosial və infrastruktur göstəricilərin təhlilini əks etdirir.

Onu da vurğulamaq lazımdır ki, Azərbaycanın iqtisadi və inzibati rayonlarının sosial-iqtisadi inkişaf göstəriciləri üzrə indeksin hesablanmasında xarici təcrübənin ən mütərəqqi üsullarından istifadə olunmuşdur. Belə ki, tədqiqatın COVİD 19 pandemiyası dövrünə düşməsi ölkə regionlarında yaşayan əhali arasında sorğunun aparılmasını məhdudlaşdırmışdır. Məhz bu günlər indeksin hesablanması xarici təcrübəyə əsaslanaraq dünyanın aparıcı Analitik Mərkəzləri tərəfindən göstəricilərin sorğu yolu ilə müəyyən edilməsi və hesablanması nəticəsində həyata keçirilir.

Hazırda regional inkişafın sosial-iqtisadi indeksinin hesablanmasında Almaniyanın bu sahədə təcrübəsi yararlı hesab olunur. Keçmiş Sovet ölkələrinin təcrübəsində isə Özbəkistanın regional inkişafının sosial-iqtisadi indeksinin hesablanmasını göstərmək olar ki, burada hər bir ərazi iki mərhələdə öyrənilir və bal verilməklə qiymətləndirilir. Qazaxstana isə nəzər salaraq onun coğrafi xüsusiyyətlərinə görə regional inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə fərqlənir və reytinqin liderləri neft hasilatı və sənaye rayonları təşkil edir.

Dünya praktikasında qəbul olunmuş ümumi metodologiyaya əsasən tədqiqat işində iqtisadi, sosial və infrastruktur inkişafı üzrə sub-indekslərin hesablanması həyata keçirilmişdir. Eyni zamanda ekspertlərin rəyi əsasında iqtisadi, sosial və infrastruktur sub-indekslərinə xüsusi çəkilərin verilməsi həyata keçirilmiş və burada iqtisadi sub-indeksə üstünlük verilmişdir.

- Aparılan təhlil göstərir ki, ölkə regionlarının sosial-iqtisadi inkişafının inteqral göstəricisi olan Sosial-İqtisadi İnkişaf indeksi (Sİİ) respublika tabeli şəhərlər və inzibati rayonlar üzrə 16,71-55,44 aralığında dəyişir. Belə ki, şəhər və rayonlar orta qiymət ətrafında qeyri-bərabər paylanır: 27 şəhər və rayon orta qiymətdən yüksək, 34-ü isə aşağı qiymət almışdır.

Belə ki, Azərbaycanda sosial-iqtisadi inkişafın ən yüksək olduğu bölgə Naxçıvan Muxtar Respublikasıdır.

Şəhər və rayonların sıralamasında birinci yeri sub-indekslərin əksəriyyəti üzrə ya lider olan, ya da qabaqcıl mövqedə dayanan Naxçıvan şəhəri (55,44) tutur (DSK-nın məlumatları əsasında hesablama aparılmışdır). Şəhər 2 sub-indeks üzrə (İqtisadi İnkişaf və Sosial İnkişaf) 1-ci, İnfrastruktur İnkişaf sub-indeksi üzrə 2-cidir. Belə ki, İnfrastruktur İnkişaf sub-indeks üzrə 1-ci yerdə Naxçıvan Muxtar Respublikasının digər rayonu Şərur qərarlaşmış və beləliklə, o Sosial-İqtisadi İnkişaf indeksində üçüncü yerdə olmuşdur. Təhlil əsasında 2-ci yerdə Azərbaycanın istirahət və müalicə mərkəzi sayılan Naftalan şəhəridir (32,38), Mingəçevir şəhəri (29,04) isə Sosial-İqtisadi İnkişaf indeksində 4-cü yerdə olmuşdur. İnfrastruktur İnkişafı sub-indeksində qabaqcıl mövqelərini nümayiş etdirən Goranboy rayonu (28,39) Sosial-İqtisadi İnkişaf indeksində 5-ci yerdə qərarlaşmışdır.

Beləliklə, ilk onluğa Bərdə rayonu (27,93), Şahbuz rayonu (27,62), Qax rayonu (27,53), Abşeron rayonu (26,79) və Sumqayıt şəhəri (26,71) də daxil olmuşlar. Son beşliyi isə Astara (16,71), Zərdab (18,16), Saatlı (18,35), Masallı (18,51) və Yardımlı (19,77) rayonları formalaşdırır.

Ölkənin iqtisadi rayonlarını təhlil edərkən İqtisadi İnkişaf və Sosial İnkişaf sub-indekslərdə Lənkəran iqtisadi rayonu sondan birinci yerdədir. İnfrastruktur İnkişafı sub-

indeksində isə Abşeron iqtisadi rayonu ikinci yerdə qərarlaşmışdır.

Ümumilikdə, belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanın iqtisadi və inzibati rayonlarının iqtisadi, sosial və infrastruktur sub-indekslərinin hesablanmasında qeyri-bərabərlik müşahidə olunur və bu, öz növbəsində, ölkənin regional inkişafına öz mənfi təsirini göstərir.

Son on ildə Azərbaycanın iqtisadi rayonlarında aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, iqtisadi, sosial və infrastruktur sub-indeks blokunda təmsil olunan göstəricilərdə qeyri-bərabərlik müşahidə olunur və bu bütövlükdə, regionların tarazlı inkişafına öz mənfi təsirini göstərir.

Bütün bunları tədqiq edərkən belə bir nəticəyə gəlmək olar ki, ölkə regionlarının qeyri-bərabər inkişaf etdirilməsi, onlar arasında fərqin mövcudluğu, bütövlükdə, sosial-iqtisadi inkişafın təmin olunmasına öz təsirini göstərir və ölkə iqtisadiyyatının inkişafında maneələrin yaranmasına səbəb olur.

- Tədqiqat işində Azərbaycanın iqtisadi rayonlarında sosial-iqtisadi inkişaf reytinqinin ekonometrik qiymətləndirilməsi verilmişdir ki, bu da əsasən ticarət dövriyyəsinin iqtisadi artıma, regionlar üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyərinin iqtisadi artıma və iqtisadi rayonlar üzrə hər nəfərə düşən ümumi məhsul

buraxılışı və əsas kapitala yönəldilmiş investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi verilmişdir.

Belə ki, tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonlarının ümumilikdə, adambaşına düşən ticarət dövriyyəsinin 1% artması respublika üzrə ÜDM-in 0,96% artması ilə nəticələnir.

Regionlar üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyərinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonlarında ümumilikdə, adambaşına düşən əhaliyə göstərilmiş ödənişli xidmətlərin 1% artması respublika üzrə ÜDM-in 0,856% artması ilə nəticələnir.

Aparlmış hesablamalar göstərir ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası, Abşeron, Dağlıq Şirvan, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala və Aran iqtisadi rayonları üzrə əhalinin hər nəfərinə düşən ümumi məhsul buraxılışının 1% artması, ÜDM-in 0,78% artmasına, əsas kapitala yönəldilmiş investisiyaların 1% artması isə ÜDM-in 0,64 % artmasına səbəb olur.

Azərbaycan regionlarının hazırkı inkişaf səviyyəsi yüksək diferensiallaşma ilə xarakterizə olunur. Bu qeyri-bərabərlik daha çox təbii ehtiyatların mövcudluğu, tarixi

infrastruktur, təbii-iqlim şəraiti, əhalinin mentaliteti və digər obyektiv amillərlə müəyyən edilir. Yuxarıda göstərilən amillərin bir çoxunun təsiri ilə əlaqədar olaraq regionların müəyyən bir ixtisaslaşması da mövcuddur - bəziləri maliyyə mərkəzləridir və bu onların inkişaf vektorunu təyin edir, digərləri hasilat, üçüncüsü, kənd təsərrüfatı, dördüncüsü, isə sənayedir [8]. Yaxın gələcəkdə bu bölgüdə köklü dəyişikliyin edilməsi çox çətin və məqsədəuyğun hesab olunur. Lakin vurğulamaq lazımdır ki, sosial-iqtisadi inkişafda insanların həyatına birbaşa təsir edən mövcud disproporsiyaların azadılması vacibdir. Məhz, ilk növbədə, bu disproporsiyaların səviyyəsinin müəyyən edilməsi əsas götürülməlidir.

Hazırda Azərbaycan iqtisadiyyatının regional inkişaf sahəsində regional siyasətin yeni prioritetləri aşağıdakılar ola bilər: bir tərəfdən daxili resursların özünü inkişaf etmə, özünü təşkil etmə və səfərbər etmə mexanizmləri, digər tərəfdən isə sektorlararası ehtiyatların həyata keçirilməsinə, sinergik effektlərin əldə edilməsinə və xarici resursların iqtisadi artıma yönəldilməsi əsasdır.

Bu günləri dünya iqtisadiyyatında, o cümlədən ölkənin sosial-iqtisadi həyatında, xüsusilə də, regionların inkişafı və əhalinin məşğulluğu sahəsində koronavirusla bağlı ciddi problemlər yaranmışdır.

Müəssisələrin inkişafında məhsul istehsalının, onun çeşidinin artmasında və dünya standartlarına cavab verməsində hələ də nöqsanlar qalmaqdadır.

Regionlarda iqtisadi aktivliyin daha da artırılması üçün mövcud iş qüvvəsi və bütün resurslar tamamilə iqtisadi dövriyyəyə cəlb edilməlidir. Hazırda regionlar paytaxtla müqayisə oluna biləcək yaşayış standartlarına malik olmalıdır ki, bu da regionların milli gəlirdə payının artırılmasını təmin edəcəkdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı// 29 yanvar 2019-cu ildə təsdiq edilmişdir, - 184 s.
2. Azərbaycanın statistik göstəriciləri//ARDSK – Bakı: Səda, - 2009, 2010, 2011, 2012, 2013, 2014, 2015, 2016, 2017, 2018, 2019.
3. Azərbaycanda həyat keyfiyyəti – 2018/ AMEA İqtisadiyyat İnstitutu, Bakı – 2019, 80 s.
4. Sultanova R.P. Azərbaycan regionlarında sənayenin inkişaf perspektivləri/ Azərbaycan regionlarında iqtisadiyyatın dayanaqlı inkişafı – Bakı – "Elm" – 2009, səh. 178-220.

Rus dilində

5. Бобылев С.Н. Эколого-экономический индекс регионов РФ. Методика и показатели для расчета / Москва, 2012.
6. Корчагина Е.В. Методы оценки устойчивого развития региональных социально-экономических систем//Проблемы современной экономики. 2012, № 1 (41),
7. Петрова Е.А. Теоретико-методические подходы к анализу социально-экономического развития региона и межрегиональные сопоставления: российский и зарубежный опыт / Вестник Волгоградского государственного университета. Сер. 3, Экономика. Экология. - 2013. № 1 (22).
8. Султанова Р.П. Обеспечение устойчивого и сбалансированного развития регионов Азербайджана // Десятая международная юбилейная научно-практическая конференция на тему: «Проблемы и перспективы развития

сотрудничества между странами Юго-Восточной Европы в рамках Черноморского экономического сотрудничества». Албена, Болгария, 18-19 сентября 2012, стр.66-71.

9. Султанова Р.П. Концепция устойчивого развития и социально-экономический путь Азербайджана// Science and world. International scientific journal, № 11 (27), 2015, Volgograd, 2015. (Импакт-фактор журнала «Наука и Мир» - 0.325 (Global Impakt Faktor 2015, Australia).
10. Султанова Р.П. Глобальный экономический кризис и его влияние на региональное развитие // International scientific and practical congress. "The global systemic crisis: new milestone in development or an impasse" Davos (Switzerland). July 28, 2015. pp. 66-68.
11. Султанова Р.П. Региональное развитие приоритетных отраслей промышленности Азербайджана // International scientific periodical journal for economists and jurists "The genesis of

genius", Geneva, Switzerland, july 2016 №6, pp. 92-94.

İnternet resursları

12. Azərbaycan Respublikası Mingəçevir şəhər icra hakimiyyətinin rəsmi internet səhifəsi http://mingechevir-ih.gov.az/page/10.html
13. Australian Bureu of Statistics https://www.abs.gov.au/websitedbs/censushome.nsf/home/seifa
14. Энциклопедия Wikipediya Elektron resurs: https://ru.wikipedia.org/wiki/%D0%A1%D1%83%D0%BC%D0%B3%D0%B0%D0%B9%D1%8B%D1%82
15. Казахстанское информационное агентство Kursiv.kz https: //kz.kursiv.media/
16. Рейтинг социально-экономического положения регионов России https://riarating.ru/infografika/20210531/630201353.html

17. Metin Ozaslan & Bulent Dincer & Huseyin Ozgur "Regional Disparities and Territorial Indicators in Turkey: Socio-Economic Development Index (SEDI) /2006, https://ideas.repec.org.

R.P. Sultanova, E.M. Xankişiyeva, K.P. Piriyev

AZƏRBAYCANIN İQTİSADİ VƏ İNZİBATİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAF İNDEKSİ

.

Format: 60x84 1/16
9,5 ş.ç.v
Tiraj: 350

"Elm və bilik" P.Z., 2022